RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 248 (8841) ÇƏRŞƏNBƏ 17 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qalib lider



## İlham Əliyevin Zəfəri türkdilli dövlətlərin birliyinin daha da möhkəmlənməsinə mühüm töhfə verib

**"...Bu, Qarabağın azad edilməsi işində göstərdiyim səylərə və türk birliyinin daha da güclənməsi işinə töhfələrimə görə verilir. Bu, türk dövlətləri tərəfindən mənim işimə, mənim fəaliyyətimə verilən çox yüksək mükafatdır, yüksək qiymətdir..."**

Bəli, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşü zamanı Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeninə 30 ilə yaxın davam edən işğala "dəmir yumruq"la bir həmlədə son qoyması, bu qətiyyətli zərbəsi ilə 100 ildir ki, xarici məkrli qüvvələr tərəfindən türk dünyası arasına zorla pərçim edilmiş süni "erməni səddi"ni darmadağın etməsi səbəbindən layiq görülüb. İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı əldə etdiyi parlaq Zəfərlə həm də tarixən var olan türk birliyinin etnosiyasi coğrafiyasını bərpa etdi. Azərbaycan Prezidentinin qətiyyəti, əzmi, siyasi iradəsi ilə qazanılan bu şanlı qələbə türk birliyinin daha da güclənməsi üçün yeni yollar açan möhtəşəm tarix kimi türk dünyasının salnamələrinə qızıl hərflərlə yazıldı.

### Bu qələbənin reallıqları türk coğrafiyasını daha da sıx birləşdirəcək

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türk Dünyasının Ali Ordenini əbədi türk birliyinin yeni və möhkəm təməllərini atan İlham Əliyevə təqdim edərkən Müzəffər Ali Baş Komandan deyə müraciət edərək söylədi ki, "qətiyyətli rəhbərliyinizlə Qarabağda təxminən otuz il davam edən işğala 44 gün kimi qısa müddətdə son qoyulub. Bu, təkcə azərbaycanlı qardaşlarımız üçün deyil, bütün türk dünyası üçün böyük əhəmiyyət daşımaqdadır".

2020-ci il sentyabrın 27-də başlayan və noyabrın 10-da işğalçı Ermənistanın kapitulyasiya aktı imzalaması ilə başa çatan 44 günlük Vətən müharibəmiz Azərbaycanın ərazi bütövlüyünü yenidən təmin etməsi, eyni zamanda türk dünyasının birliyini və bərabərliyini genişləndirməsi baxımından həqiqətən müstəsna əhəmiyyətə malik oldu.

Xüsusilə də regional mənada nəqliyyat və logistika sahəsində bütün bölgə üçün yeni imkanlar yaradacaq və Naxçıvanı doğma Azərbaycanla birbaşa əlaqələndirəcək Zəngəzur dəhlizi həm də türk dünyasını bir-birinə bağlayacaq möhtəşəm layihə oldu. Bu məsələ ilə bağlı Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə İlham Əliyev söyləmişdi ki, bu, bizi Avropaya bağlayan koridor olacaq: "Zəngəzur koridoru ilə bağlı Naxçıvan zirvəsində açılış nitqi demişdim. O zaman demişdim ki, 1920-ci ildə sovet rəsmiləri Azərbaycanı parçalamış, Zəngəzurun bir hissəsini Ermənistana vermiş və bu şəkildə türk dünyasını bölmüşdülər. Bu gün türk dünyası coğrafiyasını nəqliyyat və logistika layihələri sayəsində təkrar birləşdiririk. Bu coğrafiya artıq bu gün parçalanmış halından təkrar birləşdirilmiş halına qayıdır".

### Türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı ölkəmizin xarici siyasətinin prioritetlərindəndir

Hələ 2019-cu ildə Bakıda keçirilmiş Türk Şurasının VII Zirvə Görüşündə də Prezident İlham Əliyev bəyan etmişdi ki, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı respublikamızın xarici siyasətinin prioritet istiqamətlərindən biridir və sədrliyi qəbul edən Azərbaycan türkdilli dövlətlər arasında əməkdaşlığın və dostluğun möhkəmləndirilməsi istiqamətində öz səylərini göstərəcək.

Ardı 4-cü səh.

◆ **17 Noyabr Milli Dirçəliş Günüdür**



## Heydər Əliyevin ucaltdığı bayraq

### Bu gün Qarabağ və Şərqi Zəngəzurda qürurla dalğalanır

**1918-ci ildə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qəbul olunmuş milli bayrağımiz ikinci dəfə məhz Naxçıvan Muxtar Respublikasında qaldırılıb.**

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının dövlət atributları müəyyən edilib, Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) adından "Sovet Sosialist" sözləri çıxarılıb və Azərbaycan Xalq Cumhuriyyətinin bayrağı Naxçıvanın milli bayrağı kimi qəbul olunub.

Ardı 4-cü səh.

## Bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür

**Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Söhbət əsnasında Prezident Şarl Mişel Ermənistan-Azərbaycan sərhədində baş vermiş hadisələrlə bağlı narahatlığını ifadə edib. Sərhəddə cərəyan edən hadisələrlə bağlı Şarl Mişelin müraciətinə cavab olaraq Prezident İlham Əliyev bildirib ki, dəfələrlə Ermənistan tərəfi Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atıb və Ermənistanın son genişmiqyaslı hücumu bu gün baş verib. Dövlətimizin başçısı Azərbaycan tərəfdən yaralıların olduğunu qeyd edərək, Ermənistanın təxribatlarına adekvat cavab verildiyini vurğulayıb.

Prezident İlham Əliyev yaranmış vəziyyətə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bildirib.

Söhbət zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***Prezidentin Mətbuat Xidməti***

## XİN: "Bölgədə yaşanan gərginlik Ermənistanın növbəti hərbi-siyasi təxribatıdır"

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi son günlər Ermənistanın sərhəddə törətdiyi təxribatlar barədə məlumat yayıb.**

AZƏRTAC məlumatı təqdim edir: "Son günlərdə Ermənistan tərəfindən məqsədyönlü təxribatların törədildiyi müşahidə edilir. Bu, Ermənistan rəhbərliyinin növbəti hərbi avantürasıdır.

Belə ki, Ermənistanın keçmiş müdafiə nazirinin Azərbaycanın müvəqqəti Rusiya sülhməramlılarının nəzarətində olan ərazisinə qanunsuz səfəri və burada hərbi təyinatlı müşavirələr keçirməsi, Ermənistan silahlı qüvvələrinin 60-a yaxın şəxsi heyətinin Laçın rayonunda Azərbaycan Ordusunun mövqelərinə aparan yol üzərində cəmləşməsi, habelə Ermənistan silahlı qüvvələrinin Silahlı Qüvvələrimizin Kəlbəcər və Laçın rayonundakı mövqelərini intensiv atəşə tutması onu göstərir ki, Ermənistan tərəfi məqsədyönlü şəkildə vəziyyəti gərginləşdirir.

Bütün bunlar onu göstərir ki, Ermənistan regionda sülh və təhlükəsizliyin təmin olunmasında, eləcə də Azərbaycan ilə sərhədlərin delimitasiyasında maraqlı deyil. Vurğulayırıq ki, bölgədə yaşanan gərginlik Ermənistanın növbəti hərbi-siyasi təxribatıdır. Mövcud gərginliyə görə başlıca məsuliyyət bilavasitə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

◆ **Milli Məclisin iclasında**

## Zəfər büdcəsi müzakirəyə çıxarıldı

**Noyabrın 16-da Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın gündəliyinə müzakirə olunması üçün 24 məsələ daxil edilib. Milli Məclisin Sədri Sahibə Qafarova deyib ki, birinci oxunuşda parlamentə təqdim olunmuş 24 məsələdən 22-si gələn ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir.**

### Zəfər Komandanına verilən ali dəyər

Qanun layihələrinin təqdimatından öncə spiker noyabrın 12-də İstanbulda keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündən söz açıb. Qeyd edib ki, Zirvə görüşündə türkdilli dövlətlər arasında inteqrasiya proseslərinin daha da dərinləşməsinə yönələn bir sıra vacib qərarlar qəbul edilib, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adı dəyişdirilərək "Türk Dövlətləri Təşkilatı" adlandırılıb.

Spiker vurğulayıb ki, Zirvə görüşündə xalqımızı qürurlandıran mühüm bir hadisə baş verib. Türkdilli Ölkələrin Dövlət Başçıları Şurasının qərarı ilə Prezident İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif edilib. Ordeni Zirvə görüşündə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan təqdim edib. Möhtərəm Prezidentimiz bu yüksək mükafata Azərbaycan Respublikasının ərazilərinin işğaldan azad edilməsinə və ərazi bütövlüyünün bərpasını təmin edərək türk birliyinə mühüm töhfə verən və bölgədə davamlı sülhün, sabitliyin əldə olunmasına yol açan tarixi qələbəyə görə layiq görülüb.

Ardı 3-cü səh.

## Azərbaycandakı xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri dövlət sərhədindəki vəziyyət barədə məlumatlandırılıb

Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün noyabrın 16-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən brifinq keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, brifinq iştirakçılarına dövlət sərhədində Ermənistan tərəfinin törətdiyi təxribatlar və hazırda mövcud vəziyyət barədə ətraflı məlumat verilib.

## Zülmətdən işıqlığa




Bax: səh. 7

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213; 2001, № 3, maddə 143, № 6, maddə 362, № 11, maddələr 672, 679, № 12, maddə 731; 2002, № 1, maddə 2, № 5, maddə 241, № 6, maddə 328; 2003, № 1, maddələr 9, 23; 2004, № 1, maddə 10, № 2, maddə 57, № 3, maddə 133, № 6, maddə 413, № 7, maddə 505, № 9, maddə 672, № 12, maddə 981; 2005, № 3, maddə 151, № 4, maddə 278, № 7, maddə 560, № 10, maddə 874, № 11, maddə 1001, № 12, maddə 1094; 2006, № 3, maddələr 220, 222, № 5, maddə 385, № 11, maddə 923, № 12, maddələr 1004, 1025, 1030; 2007, № 5, maddələr 401, 437, № 6, maddə 560, № 8, maddə 756, № 11, maddələr 1049, 1053; 2008, № 3, maddə 156, № 7, maddələr 600, 602, № 10, maddə 887, № 11, maddə 960; 2009, № 2, maddə 48, № 5, maddə 294, № 6, maddə 399, № 12, maddələr 949, 969; 2010, № 2, maddələr 70, 75, № 4, maddə 275; 2011, № 1, maddə 11, № 2, maddələr 70, 71, № 6, maddə 464, № 7, maddə 598; 2012, № 11, maddə 1054; 2013, № 2, maddələr 89, 101, № 11, maddə 1268; 2014, № 2, maddə 92, № 10, maddə 1162, № 11, maddə 1339, № 12, maddə 1527; 2015, № 2, maddə 97, № 3, maddə 250, № 6, maddə 680; 2016, № 2 (I kitab), maddələr 190, 201, № 5, maddə 847, № 11, maddə 1767; 2017, № 6, maddələr 1031, 1048, № 12 (I kitab), maddələr 2187, 2189; 2018, № 1, maddə 13, № 6, maddə 1155, № 7 (I kitab), maddələr 1380, 1408, № 12 (I kitab), maddə 2532; 2019, № 1, maddə 35, № 4, maddə 570, № 5, maddələr 796, 804, № 7, maddə 1182, № 8, maddə 1380; 2020, № 1, maddə 1, № 5, maddə 522, № 7, maddə 832, № 11, maddələr 1322, 1332, 1335, № 12 (I kitab), maddə 1424; 2021, № 1, maddə 2, № 5, maddə 427, № 6 ( I kitab), maddələr 539, 541, № 7, maddələr 698, 711, № 8, maddə 894) 105-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. beşinci abzasda "Respublika günü" sözləri "Müstəqillik Günü" sözləri ilə əvəz edilsin;

1.2. səkkizinci abzasda "Dövlət müstəqilliyi günü" sözləri "Müstəqilliyin Bərpası Günü" sözləri ilə əvəz edilsin.

2. 2-ci hissədə "Respublika günü" sözləri "Müstəqillik Günü" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2021-ci il*

# "Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 29 oktyabr tarixli 389-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Elm, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının tərkibi və Əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 8 fevral tarixli 212 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 76; 2012, № 11, maddə 1087; 2013, № 12, maddə 1515) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında "Elm," sözündən sonra "texnika, memarlıq," sözləri əlavə edilsin və "tərkibi və" sözləri çıxarılsın;

1.2. 1-ci hissədən "tərkibi və" sözləri çıxarılsın;

1.3. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Elm, texnika, memarlıq, mədəniyyət və ədəbiyyat üzrə Dövlət Mükafatları Komissiyasının Əsasnaməsi"nin 7-ci hissəsində "Respublika günü" sözləri "Müstəqillik Günü" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda, 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nda, 2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nda və 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 iyul tarixli 1386 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 fevral tarixli 3657 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 260, № 11, maddə 2287; 2019, № 5, maddə 909) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 2-ci hissəsinin birinci abzasının altıncı cümləsində "Lənkəran və Aran" sözləri "Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan və Şirvan-Salyan" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 fevral tarixli 3660 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 263, № 11, maddə 2287; 2019, № 4, maddə 698, № 5, maddə 909) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında çayçılığın inkişafına dair 2018-2027-ci illər üçün Dövlət Proqramı"nın 2-ci hissəsinin ikinci abzasında "Lənkəran" sözü "Lənkəran-Astara" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 13 fevral tarixli 3668 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 271, № 11, maddə 2287; 2019, № 5, maddə 909) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı"nın 2-ci hissəsinin birinci abzasında "Lənkəran" sözü "Lənkəran-Astara" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 323) ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020-2024-cü illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8.1.1-ci yarımbənddə "Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı və Cəlilabad (bundan sonra Lənkəran iqtisadi rayonu) rayonları ərazilərinin" sözləri "Lənkəran-Astara iqtisadi rayonu ərazisinin" sözləri ilə əvəz edilsin.

4.2. 8.1.2-8.1.4-cü və 8.5.3-cü yarımbəndlərdə "Lənkəran" sözü "Lənkəran-Astara" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 noyabr 2021-ci il*

# Türkiyənin və Azərbaycanın müdafiə nazirləri arasında telefon danışığı olub



Noyabrın 16-da Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarla Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov arasında telefon danışığı olub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, general-polkovnik Zakir Həsənov Ermənistan tərəfinin təxribatları və dövlət sərhədindəki vəziyyət barədə həmkarını məlumatlandırıb və qarşı tərəfin bu addımlarının qarşısının qətiyyətlə alındığını bildirib.

Nazir Hulusi Akar öz növbəsində Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu bildirib.

# Rusiyanın müdafiə naziri Azərbaycanın müdafiə nazirinə zəng edib



Rusiya Federasiyasının müdafiə naziri, ordu generalı Sergey Şoyqu Azərbaycan-Ermənistan dövlət sərhədində yaranan vəziyyətlə bağlı Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənova zəng edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı əsnasında general-polkovnik Zakir Həsənov iki ölkənin dövlət sərhədində Ermənistanın törətdiyi təxribatların qarşısının qətiyyətlə alındığını bildirib.

Ordu generalı Sergey Şoyqu hərbi əməliyyatların dayandırılması və vəziyyətin sabitləşdirilməsi üçün səylər göstərməyə hazır olduğunu ifadə edib.

# Ermənistan hərbçiləri tərksilah edilərək saxlanılıb, xeyli sayda silah-sursat qənimət götürülüb

**Son dövrdə Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Kəlbəcər və Laçın rayonları sahəsində törətdiyi təxribatlar bu gün daha da intensivləşib və genişmiqyaslı xarakter alıb.**



Ermənistanın hərbi birləşmələri dövlət sərhədinin bu istiqamətindəki yüksəklikləri ələ keçirməklə daha əlverişli mövqelərə yiyələnmək və hərbi üstünlüyə nail olmaq məqsədilə noyabrın 16-sı saat 11.00 radələrində qəfil hərbi əməliyyata başlayıb.

AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəis müavini, polkovnik-leytenant Anar Eyvazov Ermənistan silahlı qüvvələrinin bölmələrinin dövlət sərhədində ölkəmizə qarşı törətdiyi genişmiqyaslı təxribatlarla əlaqədar noyabrın 16-da təşkil olunan brifinqdə deyib.

A.Eyvazov bildirib ki, Basarkeçər və Qarakilsə rayonlarında yerləşən mövqelərinə əlavə canlı qüvvə, hərbi və xüsusi texnika, o cümlədən artilleriya vasitələri cəmləşdirən Ermənistan hərbi bölmələri Ordumuzun Kəlbəcər və Laçın rayonları istiqamətində mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və qumbaraatanlardan intensiv atəşə tutaraq döyüş postlarımıza hücum edib. Nəticədə Azərbaycan Ordusunun iki hərbi qulluqçusu yaralanıb. Yaralılara dərhal ilkin tibbi yardım göstərilib. Hazırda onların həyatına heç bir təhlükə yoxdur.

Ermənistan silahlı qüvvələrinin döyüş aktivliyinin qarşısını almaq məqsədilə Kəlbəcər və Laçın istiqamətində yerləşən bölmələrimiz tərəfindən dərhal təxirəsalınmaz əməliyyat tədbirləri həyata keçirilib. Əvvəlcə qarşı tərəfin hərəkəti məhdudlaşdırılıb, onun qüvvə və vasitələrinə zərər vurulub. Görülmüş qəti tədbirlər nəticəsində Ermənistana məxsus tank əleyhinə qurğu və minaatan məhv edilib. Bundan başqa, erməni hərbçilər tərksilah edilərək saxlanılıb, xeyli sayda müxtəlif çaplı silah və külli miqdarda sursat qənimət kimi ələ keçirilib. Qarşı tərəfin təxribatlarının dəf edilməsi məqsədilə Azərbaycan Ordusunun bölmələri adekvat tədbirlər görür.

"Genişmiqyaslı təxribat törətməklə qısamüddətli üstünlüyə nail olmaq istəyən Ermənistan hərbi bölmələrinin hücumu əməliyyat-taktiki baxımından tam iflasa uğrayıb və rəsmi Yerevanın növbəti təxribat cəhdi uğursuzluqla başa çatıb.

Hazırda sərhəddə vəziyyət gərgin olaraq qalır, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

Müdafiə Nazirliyi tərəfindən vəziyyətlə bağlı ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək", - deyə A.Eyvazov bildirib.

# *DTX:* "Vətəndaşlarımızı rəsmi mənbələrə istinad olunmadan yayımlanan məlumatlara inanmamağa çağırırıq"

Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Ermənistan silahlı qüvvələrinin dövlət sərhədində törətdiyi təxribatlarla əlaqədar bir sıra kütləvi informasiya vasitələri və sosial şəbəkə resurslarında həqiqəti əks etdirməyən informasiyaların yer alması ilə bağlı məlumat yayıb.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, məlumatda bildirilir: "Son günlər Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən dövlət sərhədində törədilən bəzi təxribatlarla bağlı bir sıra kütləvi informasiya vasitələri və sosial şəbəkə resurslarında həqiqəti əks etdirməyən, əhali arasında vahimə yaratmaq, ictimai rəyi çaşdırmaq məqsədi güdən məlumatlar yayımlanmaqdadır.

Diqqətə çatdırmaq istərdik ki, bu tip qərəzli, saxta və ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən xəbərlərin tirajlanması Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

Vətəndaşlarımızı Azərbaycanın milli təhlükəsizliyinə və maraqlarına zərər vuran, əsassız, aidiyyəti dövlət orqanları ilə dəqiqləşdirilmədən, rəsmi mənbələrə istinad olunmadan yayımlanan belə məlumatlara inanmamağa çağırırıq".

# YAP Mərkəzi Aparatında "Xalqın inamının və etibarının təcəssümü" adlı konfrans keçirilib

Noyabrın 16-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında Veteranlar Şurasının təşkilatçılığı ilə partiyanın yaradılmasının 29-cu ildönümünə həsr olunmuş "Xalqın inamının və etibarının təcəssümü" adlı konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə YAP Veteranlar Şurasının üzvləri, partiyanın Bakı şəhəri üzrə rayon təşkilatlarının, eləcə də Abşeron rayon və Sumqayıt şəhər təşkilatlarının fəalları iştirak ediblər.

Konfransda Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Yeni Azərbaycan Partiyasının fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Konfransda çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, hazırda 760 min nəfərdən çox üzvü olan partiyamız ötən 29 ildə şərəfli yol keçib. Respublikamızın tarixində YAP qədər böyük, güclü partiya olmadığını deyən A.Rəhimzadə vurğulayıb ki, partiya Azərbaycanın ən güclü siyasi təşkilatı olmaqla ölkəmizin ictimai-siyasi həyatında fəal rol oynayır.

"Partiyamız öz gücünü Ulu Öndər Heydər Əliyev ideyalarından alır. Biz bu ideyalar ətrafında birləşərək mütəşəkkil siyasi qüvvəyə çevrilmişik. Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası böyük nailiyyətlərə imza atır. Veteranlar Şurasının üzvləri olaraq biz partiyamızın yaranma tarixini, keçdiyi yolu gənc nəslə çatdırmalıyıq. Bu baxımdan üzərimizə böyük vəzifələr düşür", - deyə YAP Veteranlar Şurasının sədri vurğulayıb.

Tədbirdə çıxış edən YAP Veteranlar Şurasının üzvü Şəmsəddin Xanbabayev bildirib ki, müstəqilliyimizin ilk illərində YAP-ın yaranması tarixi zərurətə çevrilmişdi. Onun sözlərinə görə, Azərbaycanın parçalanması təhlükəsi xalqımızın Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı üçün çağırışlarını gücləndirirdi. Çünki bütün vətəndaşlar yalnız Ümummilli Lider Heydər Əliyevi xilaskar kimi görürdü. 1992-ci il noyabrın 21-də yaranan partiya Ulu Öndər Heydər Əliyevə xalqın böyük inamı olduğu üçün qısa müddətdə təşkilatlandı və ölkəmizin ən nüfuzlu siyasi qüvvəsinə çevrildi. Ş.Xanbabayev həmçinin bu il YAP-ın VII qurultayında qəbul olunmuş qərarların və partiyada həyata keçirilən islahatların əhəmiyyətini vurğulayıb.



YAP Veteranlar Şurasının üzvü, professor Ədalət Fərəcov də çıxışında partiyanın yaranma tarixindən, keçdiyi inkişaf yolundan bəhs edib. O qeyd edib ki, 1990-cı illərdə mövcud olan xaos və anarxiya ölkəni məhv olmaq təhlükəsi ilə üzləşdirmişdi. Ona görə də xalq öz nicatını böyük dövlət xadimi Heydər Əliyevin hakimiyyətə qayıtmasında görürdü. Bir qrup ziyalı Ulu Öndərə müraciət edərək onun rəhbərliyi ilə Yeni Azərbaycan Partiyasının yaradılmasını xahiş etdi. Beləliklə, 1992-ci ilin noyabr ayında partiya yarandı və qısa müddət ərzində hakimiyyətə gəldi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkəmiz böhrandan xilas olaraq inkişaf yoluna çıxdı.

Partiyanın Sədri, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin güclü dövlətə çevrildiyini deyən Ə.Fərəcov dövlət başçısının Qarabağın işğaldan azad olunması ilə ata vəsiyyətini yerinə yetirdiyini vurğulayıb. Deyib ki, bu gün Qarabağın dirçəlişi istiqamətində görülən işlər hər bir vətəndaşda qürur hissi doğurur.

Çıxış edən YAP Veteranlar Şurasının üzvü, professor Sudeyf İmamverdiyev bildirib ki, 29 il əvvəl Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası Vətənimizi üzləşdiyi təhlükələrdən xilas etmək amalı ilə yaradılıb. Partiyanın yaradılması müstəqil Azərbaycan dövlətinin formalaşması prosesinə ciddi təsir göstərib.

YAP Veteranlar Şurasının üzvü, professor Şahlar Əsgərov da çıxışında Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən danışıb, 91 ziyalının Ulu Öndər Heydər Əliyevə müraciətinin əhəmiyyətindən bəhs edib. O, həmçinin Naxçıvanda partiyanın təsis konfransı ilə bağlı faktları diqqətə çatdırıb və qeyd edib ki, YAP öz tarixi missiyasını şərəflə həyata keçirib.

YAP Veteranlar Şurasının üzvü Xeyrəddin Qoca isə Ümummilli Lider Heydər Əliyev haqqında xatirələrini bölüşüb, Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən bəhs edərək deyib: "Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıtdı. Bu qayıdış müasir Azərbaycan tarixində həlledici dönüş nöqtəsi oldu".

YAP Veteranlar Şurasının üzvü Tahir Məmmədov çıxışında Yeni Azərbaycan Partiyasının keçdiyi inkişaf yolundan, dövlətimizin güclənməsi prosesindəki rolundan söhbət açıb.

Sonra tədbir diskussiya şəraitində davam edib, gənclərin sualları cavablandırılıb.

# "Məşğulluq marafonu" çərçivəsində 1100-dən çox şəhid ailəsi üzvü və qazi işlə təmin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu il iyun ayında başlanılan "Məşğulluq marafonu"na bu günədək 579 işəgötürən (o cümlədən 306-ı dövlət, 273-ü özəl) qoşularaq 3472 vakansiya təqdim edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, "Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən marafonun məqsədi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək verməkdir. Marafona təqdim edilən vakansiyalar üzrə həmin kateqoriyalardan olan 1103 nəfər (171 şəhid ailəsi üzvü və 932 qazi) işlə təmin olunub. Hazırda vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

"Məşğulluq marafonu"na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.



## Baş nazir Milli Məclisdə büdcənin müzakirəsində iştirak edib

Noyabrın 16-da Baş nazir Əli Əsədovun rəhbərliyi ilə hökumət üzvləri Milli Məclisdə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında qanun layihəsinin müzakirəsinə həsr olunmuş iclasda iştirak ediblər.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

## İstanbulda Zəfərimizin ildönümü və Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə musiqi axşamı keçirilib

İstanbulun tarixi Fişekhane səhnəsində Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun birgə təşkilatçılığı ilə 44 günlük Vətən müharibəsində əldə edilən şanlı Zəfərin birinci ildönümü və dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə musiqi axşamı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva açaraq, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə əməkdaşlıq çərçivəsində belə bir gecənin ərsəyə gəlməsinin mühüm önəm daşıdığını bildirib. Nərminə Mustafayeva Azərbaycanın Vətən müharibəsi dövründə qazandığı Qələbənin 30 illik həsrətə son qoyduğunu qeyd edib. O, böyük Zəfərin, eləcə də dahi Nizami yaradıcılığının ayrı-ayrılıqda türk dünyası üçün müstəsna əhəmiyyətindən söz açıb. Baş konsul tədbirin Azərbaycanın və Türkiyənin mədəni həyatını bir-birinə daha da yaxınlaşdıracağını vurğulayıb.

Tədbirdə çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bu ilin Azərbaycan və bütövlükdə türk dünyası üçün önəmli olduğunu qeyd edib. O, Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin siyasi bacarığı, Azərbaycan Ordusunun gücü nəticəsində əldə edilən Qələbəni bütün Türklüyün Zəfəri adlandırıb.

Günay Əfəndiyeva əsrlərin müasiri olan, neçə-neçə nəsillərin yoluna işıq saçan Nizami Gəncəvinin yaradıcılığının bütün türk dünyasının bəşəri sərvəti olduğunu bildirib. Fondun fəaliyyəti haqqında məlumat verən Günay Əfəndiyeva təşkilat tərəfindən həyata keçirilən çoxsaylı layihələrdən birinin "Dədə Qorqud" kamera orkestrinin yaradılması olduğunu vurğulayıb.

Konsertdə Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov çıxış edərək, bu günlərdə İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün, "Korkut Ata" Türk Dünyası Film Festivalının, eyni zamanda Zəfər gününə və Nizami Gəncəviyə həsr olunmuş konsertin keçirilməsiylə bütün türk dünyasının bir yerə toplaşdığını vurğulayıb. Anar Kərimov Azərbaycanın əzəli torpaqlarının geri qaytarılmasında Türkiyənin dəstəyindən söz açıb. O, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən türk xalqlarının birliyi istiqamətində çoxsaylı layihələr həyata keçirildiyini qeyd edərək, tədbirin təşkilini yüksək qiymətləndirib.

Tədbirdə Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan da çıxış edib. Nazir müavini Azərbaycanın tarixi ədaləti bərpa edərək əldə etdiyi möhtəşəm Qələbənin bütün türk dünyasının qürur qaynağına çevrildiyini qeyd edib. Nizami Gəncəvinin zəngin irsindən söz açan Ahmet Misbah Demircan onun yaradıcılığının bütün dünyanın çərçivələrinə sığmadığını bildirib.

Nazir müavini keçirilən konsertin türk dünyasının mədəni həyatına mühüm töhfə verəcək tədbirlərdən olacağını deyib.

Tədbirdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov, Azərbaycanın Xalq yazıçısı Elçin Əfəndiyev, TÜRK PA-nın baş katibi Mehmet Süreyya Er, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, Türk Dövlətləri Təşkilatının sədr müavinləri Qismət Gözəlov və Ömər Kocaman iştirak ediblər.

Konsert Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi altında yaradılan, Azərbaycanın Xalq artisti Yalçın Adıgözəlovun bədii rəhbərliyi və dirijorluğu ilə "Dədə Qorqud" kamera orkestrinin bir-birindən maraqlı ifaları ilə davam edib. Gecədə Nizami Gəncəvinin şeirlərinə yazılmış Üzeyir bəy Hacıbəylinin, Qara Qarayevin, Fikrət Əmirovun, eləcə də digər görkəmli bəstəkarların əsərləri səsləndirilib. Tarda Azərbaycanın Əməkdar artisti Əliağa Sadıyevin, skripkada Rüstəm Mustafanın, vokalistlər Selcan Nəsiblinin və İsmayıl Zeynalovun ifaları tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanıb.

## Ümumdünya Gömrük Təşkilatı ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri müzakirə edilib

**Noyabrın 16-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Brüsselə işgüzar səfəri çərçivəsində Ümumdünya Gömrük Təşkilatının (ÜGT) baş katibi Kunio Mikuriya ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı ÜGT ilə ölkəmiz arasındakı mövcud əməkdaşlıq səviyyəsindən məmnunluq ifadə olunub, yeni istiqamətlər üzrə əməkdaşlığın perspektivləri müzakirə edilib.

Nazir Ceyhun Bayramov qeyd edib ki, 1 il bundan öncə baş vermiş Vətən müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. Nəticədə bölgədə yaranmış yeni reallıqlar yeni nəqliyyat bağlantılarının inkişafı üçün əlverişli şərait yaradıb. Bu xüsusda qarşı tərəfə Azərbaycanın təşəbbüsü və iştirakı ilə "Şərq-Qərb", "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən infrastruktur layihələri, o cümlədən sözügedən beynəlxalq dəhlizlərin tərkib hissəsi olan Zəngəzur dəhlizinin əhəmiyyəti haqqında məlumat verilib, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işlərinə diqqət çəkilib.

Baş katib Kunio Mikuriya əvvəllər ölkəmizə səfərləri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayıb, o görüşlərin Azərbaycanla ÜGT arasındakı əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə təkan verdiyini vurğulayıb. Baş katib Azərbaycanın Avropa ilə Asiya arasındakı əlverişli coğrafi mövqeyinə diqqət çəkərək, Mərkəzi Asiya ilə nəqliyyat bağlantılarının inkişafının bütöv regionun potensialının reallaşdırılmasına töhfə verəcəyini söyləyib.

Görüş zamanı həmçinin ÜGT ilə bir sıra yeni əməkdaşlıq təklifləri üzrə müzakirə aparılıb.

## Milli Məclisin iclasında

# Zəfər büdcəsi müzakirəyə çıxarıldı

### Dövlətin əsas maliyyə sənədi qarşıya qoyulan strateji vəzifələrin yerinə yetirilməsinə möhkəm zəmin yaradır








*Əvvəli 1-ci səh.*

Sahibə Qafarova Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi münasibəti ilə ölkə Prezidentini Milli Məclisin adından ürəkdən təbrik edib, xalqımızın və dövlətimizin bu günü və gələcəyi naminə dəyərli fəaliyyətində ona yeni böyük uğurlar arzulayıb. Təbrik alqışlarla qarşılanıb.

### 2022-ci ilin büdcəsi ölkənin iqtisadi həyatında mövcud olan reallıqları dolğun əks etdirir

Sonra iclasda gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Birinci məsələ - "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi barədə danışan Milli Məclisin Sədri qeyd edib ki, dövlətin əsas maliyyə sənədi sayılan dövlət büdcəsi ümumdövlət maliyyəsinin ayrılmaz tərkib hissəsi olduğuna görə onun göstəricilərinə əsaslanaraq ölkənin iqtisadi vəziyyəti barədə mühakimə yürütmək mümkündür. Bu baxımdan müzakirəyə çıxarılan dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər ölkənin iqtisadi həyatında mövcud olan reallıqları dolğun əks etdirir.

Sahibə Qafarova məmnunluqla bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi inkişaf strategiyası koronavirus pandemiyasının davam etməsinə və dünyada iqtisadi fəallığın tam bərpa olunmamasına baxmayaraq, dövlətimizin dinamik inkişafını təmin etməyə imkan verib. Ölkəmizin tarixində ən böyük həcmli büdcə tərtib edilərək Milli Məclisə təqdim olunub. Gələn il büdcə xərcləri ilk dəfə olaraq 30 milyard manata yaxınlaşacaq ki, bu da cari illə müqayisədə 1 milyard 336 milyon manat artıq vəsait deməkdir. Beləliklə, 2022-ci ilin dövlət büdcəsi qarşıya qoyulan strateji vəzifələrin yerinə yetirilməsinə möhkəm zəmin yaradır.

Parlamentin rəhbəri onu da qeyd edib ki, 2022-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin iclaslarında geniş müzakirə olunaraq Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili çıxış edərək "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin və büdcə zərfinə daxil olan digər qanun layihələrinin, həmçinin bu layihələrə dair Hesablama Palatasının rəyinin qanunvericiliyin tələblərinə uyğun surətdə hazırlanaraq Milli Məclisə təqdim olunduğunu diqqətə çatdırıb.

Bildirib ki, komitə iclasında ilk dəfə olaraq Milli Məclisin Sədri Sahibə Qafarovanın təşəbbüsü ilə büdcə zərfinə daxil edilən layihələrin müzakirəsinin parlamentdə təmsil olunan siyasi partiyaların, o cümlədən müxalifət partiyaları nümayəndələrinin iştirakı ilə aparılması həm müzakirələrin inklüzivliyini təmin edib, həm də ölkədə aparılan siyasi islahatların ali qanunverici orqanda reallaşmasının növbəti addımı olub.

2020-ci ildə 3 faizdən çox azalan qlobal ÜDM-in 2021-ci ildə 5,9 faiz artacağı proqnozlaşdırılır. Azərbaycanda rəqəmsal transformasiyanın, Qarabağ və Şərqi Zəngəzurda yaşıl iqtisadiyyatın inkişaf prioriteti kimi seçilməsi ölkəmizə xeyli üstünlük qazandıracaq.

Komitə sədri bildirib ki, 26,8 milyard manat gəlir və 29,9 milyard manat xərc ilə təqdim olunmuş dövlət büdcəsinin layihəsi ölkəmizin cari və strateji inkişaf hədəflərinə, iqtisadi siyasətinə və qarşıda duran çağırışları dəf etməyə xidmət etmək iqtidarında olacaq.

### İşğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır

İclasda maliyyə naziri Samir Şərifov 2022-ci ilin dövlət və icmal büdcələrinin layihələri və sonrakı 3 il üçün icmal büdcənin əsas göstəriciləri barədə ətraflı məlumat verib.

Maliyyə naziri bildirib ki, gələn ilin büdcəsinin prioritet xərclərində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ön sırada dayanır. Hazırda mənfur düşmənin uzun illər ərzində viran qoyduğu yurdlarımıza yeni nəfəs verilir, avtomobil və dəmir yolları çəkilir, elektrik, qaz, su təchizatı və kənd təsərrüfatı infrastrukturları qurulur, tarixi, mədəni, dini irsimiz bərpa olunur, beynəlxalq hava limanları tikilir. Böyük qayıdışın təmin edilməsi, işğaldan azad olunmuş ərazilərimizin bərpa və yenidənqurma işləri ilə ölkə iqtisadiyyatına reinteqrasiyası, bununla əlaqədar dövlətimizin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi, milli təhlükəsizliyinin gücləndirilməsi məsələsi Azərbaycan Prezidentinin ölkəmizin 2030-cu ilədək sosial-iqtisadi inkişafına dair cari ilin fevral ayında müəyyən etdiyi 5 illik inkişaf prioritetlərindən biridir. 2022-ci ilin dövlət büdcəsinin layihəsi bu prioritetlər nəzərə alınmaqla və İqtisadiyyat Nazirliyinin hazırladığı müvafiq sənədlərdəki makroiqtisadi göstəricilər əsas götürülməklə tərtib edilib.

Dövlət büdcəsinin əsas göstəricilərindən danışan maliyyə naziri bildirib ki, layihədə 2022-ci il dövlət büdcəsinin gəlirləri 26 milyard 816 milyon manat, xərcləri 29 milyard 879 milyon manat məbləğində nəzərdə tutulub. Növbəti ilin büdcə gəlirlərinin Dövlət Vergi Xidməti tərəfindən 8 milyard 820 milyon manat, Gömrük Komitəsinin xətti ilə 4 milyard 260 milyon manat daxilolmalar nəticəsində təmin edilməsi nəzərdə tutulur. Büdcədənkənar gəlirlər 760 milyon manat, digər daxilolmalar isə 260 milyon manat məbləğində proqnozlaşdırılır. Eyni zamanda Dövlət Neft Fondundan dövlət büdcəsinə transfer 12 milyard 710 milyon manat məbləğində nəzərdə tutulub. İcmal büdcənin gəlirləri 27 milyard 677 milyon manat, icmal büdcənin xərcləri isə 32 milyard 906 milyon manat məbləğində nəzərdə tutulub.

İşğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi, Qarabağın və Şərqi Zəngəzurun Azərbaycan iqtisadiyyatına reinteqrasiyası üçün 2,2 milyard manat məbləğində vəsaitin ayrılması təklif olunur.

Büdcədə xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2022-ci ilin yanvarın 1-dən əməkhaqlarının və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılması əsas məsələlərdəndir.

### Sosial xərclər 46,4 faizə çatdırılır

Samir Şərifov dövlət büdcəmizin ənənəvi olaraq sosialyönümlü olduğunu vurğulayıb. Büdcədə sosial xərclərin 46,4 faizə çatdırıldığını və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırıldığını deyib. Bildirib ki, bu xərclərin maliyyə tutumunun 13 milyard 851 milyon manata çatdırılması nəzərdə tutulub. Həmin xərclərin 60 faizi əməyin ödənilməsi ilə bağlıdır. Belə ki, 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunur. Sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard 566 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur.

Prioritet istiqamətlərdən biri də təhsil sahəsidir. Təhsil xərclərinə büdcədən 3 milyard 884 milyon manat ayrılması nəzərdə tutulub. Digər prioritet istiqamət olan səhiyyə sahəsinə ayrılan vəsait cari ildən başlayaraq tətbiq olunan icbari tibbi sığorta öhdəlikləri də nəzərə alınmaqla 1 milyard 789 milyon manat səviyyəsində müəyyən edilib. Gənclər və idman sahəsinə 44 milyon manat, turizmin inkişafı üçün 59 milyon manat vəsaitin ayrılması planlaşdırılır.

Maliyyə naziri 2022-ci ildə Naxçıvan Muxtar Respublikası büdcəsinin gəlir və xərcləri, kənd təsərrüfatı, ətraf mühitin və təbiətin mühafizəsi, nəqliyyat, rabitə və mənzil-kommunal sahələrinə, habelə güzəştli ipoteka kreditlərinin dəstəklənməsi üçün dövlət büdcəsindən ayrılacaq vəsait barədə də ətraflı məlumat verib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov plenar iclasda qeyd edib ki, dövlət başçısının rəhbərliyi ilə ölkədə həyata keçirilən fundamental islahatlar milli iqtisadiyyatın dayanıqlı inkişafını, sürətlə müasirləşməsini və əhalinin maddi rifahının davamlı şəkildə yaxşılaşmasını təmin edir. Bildirib ki, hazırda Azərbaycan 2022-2030-cu illəri əhatə edən yeni strateji inkişaf mərhələsinə daxil olur. Bu strateji dövrdə qarşıda iqtisadi artımın daha dayanıqlı drayverlərinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin, innovasiya yönümlülüyünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi və azad edilmiş ərazilərin reinteqrasiyası kimi yeni vəzifələr durur.

Büdcə siyasətinin əsas özəlliyindən bəhs edən iqtisadiyyat naziri deyib ki, dövlət büdcəsi eyni zamanda işğaldan azad olunmuş ərazilərin bərpasını maliyyələşdirməlidir.

Azərbaycan Prezidentinin təşəbbüsü ilə gələn ilin dövlət büdcəsində iqtisadi artıma və məşğulluğa dəstək məqsədilə dövlət investisiya proqramı üçün ayrılan vəsaitlərin həcmi 850 milyon manat artırılaraq 2,8 milyard manata çatdırılıb. Bildirib ki, növbəti ilin büdcə layihəsi ölkədə genişmiqyaslı sosial proqramların həyata keçirilməsini, minimum əməkhaqlarının, pensiyaların və digər sosial ödənişlərin artırılmasını əhatə edir.

Ölkədəki iqtisadi vəziyyət barədə danışan nazir tikinti sektoru istisna olmaqla iqtisadiyyatın bütün sahələrində artım templərinin sürətləndiyini qeyd edib. Bu ilin yanvar-sentyabr aylarında ÜDM-in 4,8 faiz artdığını deyib. Bildirib ki, əgər 2017-2020-ci illərdə qeyri-neft sənayesində əlavə dəyərin orta illik artım tempi 9,3 faiz təşkil edirdisə, bu ilin 9 ayında qeyri-neft sənayesində əlavə dəyər 20 faizdən çox artıb. Ölkənin strateji valyuta ehtiyatlarının həcmi cari ilin oktyabr ayının sonuna kimi 53 milyard ABŞ dollarını ötüb ki, bu da proqnozlaşdırılan illik ÜDM-in təqribən 110 faizinə ekvivalentdir.

İclasda 2022-ci ilin pul-kredit siyasətinin əsas istiqamətləri barədə danışan Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri Elman Rüstəmov bildirib ki, ortamüddətli dövr üçün bu siyasət olduqca mürəkkəb xarici mühit şəraitində və onun milli iqtisadiyyatımıza çoxkanallı neqativ təsirləri şəraitində formalaşdırılıb.

Valyuta bazarında tarazlıq müşahidə olunur. Milli valyutanın məzənnəsi ilin əvvəlindən sabitdir. İl ərzində keçirilən valyuta hərraclarının əksəriyyətində təklif tələbi üstələyib və manat əhəmiyyətli möhkəmlənmə təzyiqi altında olub. Cari ilin birinci yarısında məqbul hədəf çərçivəsində olan inflyasiya şəraitində Mərkəzi Bankın monetar siyasəti başlıca olaraq iqtisadiyyatın 2020-ci ildə düşdüyü resessiyadan çıxarılmasına və bərpasına dəstək olub.

Sonra iclasda Hesablama Palatasının sədri Vüqar Gülməmmədov qurumun 2022-ci ilin dövlət büdcəsinin layihəsinə dair rəyini təqdim edib. Diqqətə çatdırıb ki, dövlət büdcəsinin layihəsi ilə birlikdə hazırlanan və təqdim edilən sənədlərin siyahısı əvvəlki illərlə müqayisədə artırılıb, izahatlara daxil edilmiş məlumatların keyfiyyəti və həcmi də yüksəldilib. Bu, Hesablama Palatası tərəfindən təqdirəlayıq hal kimi qiymətləndirilib.

Büdcə zərfinə daxil edilmiş məlumatların müqayisəli təhlilindən bəhs edən Vüqar Gülməmmədov qurumun bir sıra istiqamətlər üzrə əvvəlki rəylərində qeyd edilmiş məsələlərin bu ilki zərfdə nəzərə alındığını bildirib. Vurğulayıb ki, dövlət maliyyəsi üzərində parlament nəzarətinin tam və əhatəli olması, ilk növbədə, icmal büdcənin və onun tərkib hissələrinin layihəsi və icrası ilə bağlı müzakirələrdə istinad edilən sənəd və məlumatların çeşidindən və məlumatlılıq səviyyəsindən asılıdır. Müzakirəyə təqdim edilən sənədlər büdcə gəlirləri ilə bağlı qiymətləndirmələrin aparılmasına daha münbit şərait yaradıb.

Qeyd edilib ki, Hesablama Palatası təqdim edilmiş layihəni dəstəkləyir və hazırladığı rəyin büdcə müzakirələrində faydalı olacağına ümid edir.

Təqdimatlar dinlənildikdən sonra plenar iclasda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi başlanıb.

Müstəqillik tariximizin ən iri tutumlu büdcəsinin geniş müzakirəsində komitə sədrləri Ziyafət Əsgərov, Əhliman Əmiraslanov, Musa Quliyev, Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Hikmət Məmmədov, Mahir Abbaszadə, Ziyad Səmədzadə, Kamal Cəfərov, Sahib Alıyev, Azər Badamov, Əli Məsimli, Emin Hacıyev, Elman Nəsirov, Razi Nurullayev, Kamran Bayramov, Vahid Əhmədov, Elnur Allahverdiyev, Musa Qasımlı, Anar Məmmədov, Rəşad Mahmudov, Şahin İsmayılov, İlham Məmmədov, Cavanşir Paşazadə, Aydın Mirzəzadə, Elşən Musayev sənədi ətraflı təhlil ediblər, qanun layihəsi barədə rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar.

Geniş müzakirələrin yekununda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Milli Məclisdə büdcə zərfinin müzakirələri bu gün davam etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Heydər Əliyevin ucaltdığı bayraq

## Bu gün Qarabağ və Şərqi Zəngəzurda qürurla dalğalanır

*Əvvəli 1-ci səh.*



### Sovet dövlətinin dağıdılmasının siyasi təməlləri ilk dəfə Naxçıvanda atılıb

Sovet hakimiyyətinin hələ dağılmadığı bir dövrdə bu cəsarətli təşəbbüs zaman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olan Heydər Əliyev tərəfindən irəli sürülüb.

"Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" qərarın verilməsi müstəqil Azərbaycanın dövlətçilik tarixində ilk və mühüm dövlət sənədlərindən idi. 70 illik imperiya əsarətindən sonra milli bayrağımızın ilk dəfə Naxçıvanda qaldırılması müstəqil Azərbaycan Respublikasının dövlət quruculuğu prosesinin məhz muxtar respublikadan başlanılması demək idi.

Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmaqla ölkəmizdə gedən siyasi proseslərə güclü təkan verdi. Bu proseslərin nəticəsi olaraq, müstəqilliyini yeni elan etmiş Azərbaycanın qırmızı sovet bayrağı üzərində ağ rəngli aypara ilə səkkizguşəli ulduzun təsvir olunduğu üçrəngli bayraqla əvəzləndi. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Soveti həmin bayrağı dövlət bayrağı kimi təsdiq etdi.

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Milli Məclisin deputatı, akademik İsa Həbibbəyli bildirir ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 21 iyul 1990-cı ildə Moskvadan Azərbaycana qayıdışı ilə ölkəmizin ictimai-siyasi həyatında yeni tarixi mərhələ başladı. Siyasi mühacirətdən Vətənə qayıdış həm də, öz növbəsində, Ulu Öndərin yenidən böyük siyasətə dönüşünün əsasına çevrildi. Məhz bu dövrdən etibarən Azərbaycanda dövlət müstəqilliyi uğrunda mübarizə ideyadan hərəkata doğru inkişaf etdi. Ümummilli Lider Heydər Əliyevin ölkədə atdığı hər addım, onunla əlaqədar baş vermiş bütün hadisələr Azərbaycanın siyasi həyatında ciddi reaksiya doğurdu, geniş əks-səda verdi, milli azadlıq mübarizəsinin genişləndirilməsinə güclü surətdə təsir göstərdi. Beləliklə, Heydər Əliyev faktoru Azərbaycanda milli azadlıq və demokratiya uğrunda mübarizənin əsas amilinə, hərəkətverici qüvvəsinə çevrildi.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan Sovet Respublikasının siyasi rəhbərliyi tərəfindən qəbul edilmədiyi üçün taleyin hökmü ilə Naxçıvana gəlməsi ilə muxtar respublika milli azadlıq mübarizəsinin qaynar qazanı statusunu qazandı. Həmin illərdə Naxçıvan Muxtar Respublikası azadlıq və demokratiyanın əsas laboratoriyası funksiyasını yerinə yetirdi. Ulu Öndər Heydər Əliyevin adı və Naxçıvandakı fəaliyyəti ilə bağlı olan tarixi addımlar dövlət müstəqilliyi uğrunda mübarizənin inkişaf pillələri oldu.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinə doğru mübarizəsində Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixdə keçirilmiş birinci sessiyasının xüsusi əhəmiyyəti olub. Bu tarixi sessiya ilə Azərbaycanda dövlət müstəqilliyinin yenidən bərpa edilməsinin əsası qoyulub. Naxçıvan MSSR Ali Sovetinin 17 noyabr 1990-cı il tarixli sessiyasında ilk dəfə olaraq sovet dövlətinin dağıdılmasının siyasi təməlləri atılıb. Görkəmli dövlət xadimi Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Naxçıvan MSSR-in adından "Sovet Sosialist" sözlərinin çıxarılması, Ali Sovetin Ali Məclis adlandırılması SSRİ-nin tarixində görünməmiş hadisə idi. Bu miqyasda möhtəşəm və cəsarətli qərarların qəbul edilməsi yalnız və yalnız böyük təcrübəyə, aydın siyasi uzaqgörənliyə, dəmir iradəyə malik Heydər Əliyev miqyasında olan böyük dövlət xadimi tərəfindən həyata keçirilə bilərdi.

### Sovet bayrağının endirilməsi ilk dəfə Naxçıvanda baş verib

İsa Həbibbəyli qeyd edir ki, hələ SSRİ adlanan superdövlətin yaşadığı, sovet təhlükəsizlik orqanlarının mövcud olduğu bir zamanda dövlət müstəqilliyi üçün ən zəruri faktorlardan biri olan dövlət bayrağının dəyişdirilməsi məsələsinin gündəliyə daxil edilməsi Heydər Əliyev şücaətinin və qətiyyətinin əməli ifadəsiydi. Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ildə Naxçıvan MSSR Ali Sovetinin binası üzərində dalğalanan sovet bayrağının endirilməsi ağlasığmaz tarixi hadisə idi. Naxçıvan Muxtar Respublikasında sovet bayrağının dövlət iqamətgahının üzərindən götürülməsi SSRİ-nin çökəcəyinin birinci anonsu olmuşdu. Bu, Heydər Əliyevin sovet dövlətinin dağılmasına vurduğu ölümcül zərbənin gerçək ifadəsi idi. O zamana qədər keçmiş SSRİ-nin heç bir müttəfiq respublikasında sovet dövlət bayrağının endirilməsi hadisəsi baş verməmişdi. Məhz Heydər Əliyevin cəsarəti və uzaqgörənliyi sayəsində SSRİ-nin dağıdılmasının əsasını qoyan sovet bayrağının ləğv edilməsi hadisəsi ilk dəfə Naxçıvan Muxtar Respublikasında baş verdi. Bununla nəinki Azərbaycanda, geniş mənada SSRİ-də sovet dövlətinin sarsılmaz bir ittifaqdan ibarət olması haqqındakı mif dağıdıldı.

Yeni dövlət bayrağı seçimi məsələsində mühüm cəhətlərdən biri sovet bayrağının hansı qaydada yeniləşdirilməsi ilə əlaqədardır. Çünki bu məqamda daha çox sovet dövlət bayrağının üzərindəki sosialist sistemini rəmzləşdirən oraq və çəkic atributlarından imtina etmək ön mövqedə dayanırdı. 17 noyabr 1990-cı il sessiyasında Naxçıvan MSSR anlayışında dəyişiklik edilərkən də "Sovet Sosialist" sözlərindən imtina olunmuşdu. Bayraq məsələsində sovet dövrünün simvolikası olan oraq və çəkici çox asanlıqla qılınc və qələmlə əvəz etməklə məsələni nisbətən yumşaq formada həll etmək mümkün idi. Bu, sovet hakimiyyətinin özünə düşmən elan etdiyi və 70 il ərzində əleyhinə mübarizə apardığı Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını qəbul etməklə müqayisədə nisbətən daha ağrısız ötüşə bilərdi. Bundan başqa, SSRİ adlanan dövlət sovet hakimiyyəti illərində Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi olan üçrəngli bayrağı nəinki çoxdan hər yerdən yığışdırmış, büsbütün unutdurmuş, yaddaşlardan silmişdi. Bütün bunlara baxmayaraq, görkəmli dövlət xadimi Heydər Əliyev sovet bayrağının atributlarının dəyişdirilməsinə yox, SSRİ bayrağından tam imtina edilməsinə qərar vermişdi: "Hələ sovet sosialist sisteminin yaşamaqda davam etdiyi çətin və mürəkkəb tarixi bir şəraitdə Heydər Əliyevin iradəsi ilə sovet bayrağının Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi olan üçrəngli Azərbaycan bayrağı ilə əvəz olunması bütövlükdə mövcud siyasi sistemdən imtina edilməsi demək idi. Hələ SSR-nin yaşadığı, Heydər Əliyevin Siyasi Bürodakı əleyhdarlarının ən yüksək dövlət vəzifələrində fəaliyyətlərini davam etdirdikləri bir şəraitdə uzaqgörən dövlət xadiminin böyük cəsarətlə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağının üzərində kosmetik dəyişikliklər etmək yolu ilə getməyərək, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağını qəbul etmək haqqında qərar qəbul etməsi müstəqil dövlətçilik tariximizin mühüm və nadir tarixi hadisəsidir. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarın Ali Məclisin sessiyasında görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən elan olunması sadə xalq deputatının Azərbaycan xalqının lideri qismində çıxış etməsinin real göstəricisi idi".

### Müstəqilliyə gedən yol üçrəngli bayrağın dövlət rəmzi kimi qəbul olunması ilə başlanıb

Hələ hakimiyyətdə olan Naxçıvan Vilayət Partiya Komitəsinin başı üzərindən sovet bayrağının yerə endirilməsi və ləğv olunması sovet sosialist sisteminin də, onun avanqard partiyasının da fəaliyyətinin artıq dayandırılması, ömrünü başa vurması demək idi: "Bu məqamda nəzərə almaq lazımdır ki, Heydər Əliyevin sədrliyi ilə "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında" rəsmi qərar qəbul edilərkən və Ulu Öndərin təklifi əsasında Ali Məclisin qərarı ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı muxtar respublikanın dövlət rəmzi kimi Naxçıvan Vilayət Partiya Komitəsinin iqamətgahı üzərində ucaldılarkən Heydər Əliyev fərdi təqaüdçü və xalq deputatı idi. Ona görə də bu, ilk növbədə, müdrik siyasi xadim olan Heydər Əliyevin xalqa bağlılığı, qətiyyəti və böyük uzaqgörənliyi sayəsində meydana çıxmış tarixi hadisə idi. Üçrəngli Azərbaycan bayrağı muxtar bir qurumun dövlət rəmzi kimi qəbul edilərkən Sovet İttifaqının ozamankı rəhbərləri hələ Kommunist Partiyasını qoruyub saxlamaq və onun fəaliyyətinin davam etdirilməsinə təminat almaq üçün referendum keçirməyə hazırlaşırdılar. Fövqəladə Vəziyyət Dövlət Komitəsi (QKÇP) ilə Kommunist Partiyası arasında qalıb, günahlarını və çaşqınlıqlarını gizlətmək üçün vurnuxan Azərbaycan SSR-in rəhbərləri isə Kremlə sədaqət göstərdiklərini hər hansı bir yolla nümayiş etdirmək üçün əlavə yollar axtarırdılar. Hadisələrin sonrakı gedişatı göstərdi ki, görkəmli dövlət xadimi Heydər Əliyev SSRİ adlanan imperiyanın dağılmağa məhkum olduğunu və Kommunist Partiyasının iflasa uğradığını əvvəlcədən görməklə və bu zəmində öz xalqının müstəqilliyinə doğru qətiyyətli addımlar atmaqla həmin dövrdə SSRİ-yə, Kommunist Partiyasına və müttəfiq respublikalara başçılıq edən keçmiş sovet rəhbərlərinin hamısını birmənalı olaraq qabaqlamışdı".

İ.Həbibbəyli nəzərə çatdırır ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyinə gedən yol Heydər Əliyevin 17 noyabr 1990-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında üçrəngli Azərbaycan bayrağını dövlət rəmzi kimi qəbul etdirməsi ilə başlanır. Bu, Azərbaycanda dövlət müstəqilliyinin yenidən bərpa edilməsinə doğru atılmış birinci qətiyyətli və zəruri addım kimi mühüm tarixi əhəmiyyətə malik olan siyasi hadisədir.

Akademikin fikrincə, həmin sessiyada xalqımız və ölkəmiz üçün qəbul edilmiş taleyüklü tarixi qərarlar Heydər Əliyevin mənsub olduğu xalqın əsl lideri olduğunu isbat etdi. Az sonra SSRİ-nin dağılması və ölkəmizin də dövlət müstəqilliyi əldə etməsi görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının lideri kimi böyük gələcəyə doğru aparan yolları qabaqcadan aydın surətdə gördüyünü, apardığı mübarizənin doğruluğuna inandığını bir daha təsdiqlədi.

### Dövlət təhlükəsizlik orqanları bayrağı oğurlamışdılar

AMEA Naxçıvan Bölməsinin sədri, tarix üzrə elmlər doktoru İsmayıl Hacıyev bildirir ki, Ulu Öndər Heydər Əliyev Moskvadan Naxçıvana qayıdan zaman burada ictimai-siyasi vəziyyət bir qədər mürəkkəb idi. Azərbaycan rəhbərliyi Naxçıvana o qədər ciddi münasibət göstərmirdi, Ermənistan isə Naxçıvan uğrunda mübarizə aparırdı: "Həmin zaman həm Naxçıvan parlamentinə, həm də Azərbaycan Ali Sovetinə seçkilər keçirildi. Ulu Öndər həm Naxçıvan, həm də Azərbaycan qanunverici orqanına deputat seçildi. 17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin ilk iclası mürəkkəb bir şəraitdə keçirildiyinə görə həmin sessiyanın aparılması təcrübəli dövlət xadimi, görkəmli siyasətçi Heydər Əliyevə həvalə olundu və burada çox vacib, respublika əhəmiyyətli mühüm məsələlər barədə qərarlar verildi. Naxçıvan Ali Məclisinin binası üzərində üçrəngli bayraq dalğalandıqdan sonra Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın Azərbaycan Respublikasının da dövlət bayrağı kimi qəbul edilməsi haqqında vəsatət qaldırıldı. SSRİ dövründə hər bir siyasi xadimin belə bir addım atmağa cəsarəti çatmazdı. Heydər Əliyev qüdrətli dövlət xadimi idi ki, SSRİ bayrağını götürüb Azərbaycan bayrağı ilə əvəz etdi. Hətta tarixi mənbələrdə belə məlumat var ki, dövlət təhlükəsizlik orqanları həmin bayrağın qaldırılmaması üçün bir gün əvvəl - hazırlıq işləri aparılan zaman onu oğurlamışdılar. Bayraq təcili olaraq yenidən hazırlanmış və Ali Sovetin keçirildiyi zala gətirilmişdi. Bütün bunlar Heydər Əliyevin nə qədər qətiyyətli bir dövlət xadimi olduğunu göstərirdi. Bir neçə gündən sonra - noyabrın 21-də 1990-cı il 20 Yanvar faciəsinə hüquqi-siyasi qiymət verildi və orada bu faciənin baş verməsində günahkar olanların adları bir-bir qeyd edildi. Buna qədər nə Naxçıvan, nə də Azərbaycan miqyasında 20 Yanvar hadisələrinə hüquqi-siyasi qiymət verilməmişdi".

### Naxçıvanda dövlət bayrağının qaldırılması Azərbaycanın dövlətçilik ənənələrinə müsbət təsir göstərdi

İ.Hacıyev əlavə edir ki, Naxçıvanda dövlət bayrağının qaldırılması Azərbaycanın dövlətçilik ənənələrinə müsbət təsir göstərdi. Onun fikrincə, "Sovet Sosialist" sözləri Naxçıvanın adından götürülürdüsə, bu, artıq Azərbaycan miqyasında da həyata keçirilməli idi: "Hələ o zaman Azərbaycan rəhbərliyi SSRİ-nin saxlanılması üçün fəaliyyət göstərirdi. Ancaq 1991-ci ildə SSRİ-nin saxlanılması haqqında referendumda Naxçıvan Muxtar Respublikası iştirak etmədi. Təbii ki, bütün bunlar Azərbaycanda dövlətçilik ənənələrinin inkişafına çox müsbət təsir göstərdi. Naxçıvanda həyata keçirilən tədbirlər Azərbaycan miqyasında həyata keçirildi. Məsələn, artıq kolxoz və sovxozlar özünü doğrultmadığı üçün Naxçıvanda onların özəlləşdirilməsi, torpaqların insanların ixtiyarına verilməsi haqqında qərarlar qəbul edildi. Ulu Öndər Heydər Əliyev Azərbaycanda siyası hakimiyyətə qayıtdıqdan sonra bütün bunlar respublika miqyasında həyata keçirilməyə başlanıldı. Bu, artıq SSRİ-dən çıxmağın mühüm əlamətlərindən biri idi".

1990-cı il noyabrın 17-də Naxçıvanda qaldırılmış milli bayraq Azərbaycanın müstəqil, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün atılan ilk addımlar idi. Ulu Öndər Heydər Əliyevin cəsarətli təşəbbüsü ilə yenidən göylərə qaldırılan üçrəngli bayrağımız bu gün Azərbaycan xalqının qürur mənbəyidir.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***



# Qətiyyətli siyasətin uğurlu nəticəsi

Azərbaycan Prezidenti İlham Əliyev hələ 44 günlük Vətən müharibəsi başlamamışdan xeyli əvvəl qətiyyətlə bəyan edirdi: "Dağlıq Qarabağ Azərbaycandır və bütün dünya bunu belə tanıyır. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır".

Dövlət başçısı bu tarixi həqiqəti 2007-ci il martın 9-da öz təşəbbüsü ilə keçirilən dünya ölkələrindəki Azərbaycan və türk diasporları rəhbərlərinin Bakı Forumunda bütün kəskinliyi ilə bəyan etmişdi. Bununla da bir daha təsdiqlənmişdi ki, dövlət başçısı milli məsələlərdə güzəştə getməyən liderdir. O, hakimiyyətə gələndən böyük Zəfər gününə kimi, 17 il ərzində yorulmadan, heç bir güzəştə getmədən Qarabağ məsələsində təcavüzkar Ermənistana, onun havadarlarına, supergüclərə qarşı qətiyyətlə mübarizə apararaq, Azərbaycanın haqq səsini dünyaya çatdırdı. Azərbaycan Prezidenti müharibəyə kimi ən geniş beynəlxalq arenalarda, ən yüksək kürsülərdə dəfələrlə bütün dünyaya bəyan etdi ki, Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Ölkəmiz bu məsələdə heç bir güzəştə getməyəcək.

Azərbaycan Prezidentinin müxtəlif tədbirlərdə dəfələrlə söylədiyi "Azərbaycan torpaqları danışıqların mövzusu ola bilməz" fikri Dağlıq Qarabağ məsələsində nə qədər prinsipial, güzəştsiz olduğunun göstəricisidir. Bu prinsipiallıq onun yalnız Ermənistana, dünyaya yayılmış erməni lobbisinə qarşı yox, həm də beynəlxalq ikili standartlara, düşmənə himayədarlıq edən supergüclərə, dövlətlərə qarşı qətiyyətli mübarizəsi idi. Hələ 2016-cı ildə "Rossiya seqodnya" BİA-nın direktoru Dmitri Kiselyova müsahibəsində qətiyyətlə bildirirdi: "Biz heç bir zaman Dağlıq Qarabağa müstəqillik verilməsi ilə razılaşmayacağıq və erməni tərəfi də bunu əla bilir. Amma ağıllı kompromis mümkündür, Dağlıq Qarabağda əhalinin təhlükəsizliyinin, həyat fəaliyyətinin, özünüidarəsinin təmin olunması, Azərbaycan tərəfindən müxtəlif investisiya layihələrinin həyata keçirilməsi, Dağlıq Qarabağın hüdudlarından kənardakı ərazilərin azad olunması şərti ilə iki xalq arasında qarşılıqlı yolla sülh - bax, biz münaqişənin həllini belə görürük. Bunlar hazırda üzərində işlədiyimiz və vasitəçilərin irəli sürdüyü təkliflərlə uzlaşır. Dediyim kimi, Azərbaycanın ərazi bütövlüyü ətrafında kompromis ola bilməz..."

Bu fikirlər dövlət başçısı İlham Əliyevin yenilməyən qətiyyəti idi. 3 oktyabr 2019-cu ildə Soçidəki "Valday" forumunda çıxışı zamanı Dağlıq Qarabağ münaqişəsinə toxunaraq dediyi fikir də dillər əzbəri oldu: "Mən Ermənistan baş nazirinin təəccüb doğuran "Qarabağ Ermənistandır və nöqtə" bəyanatına toxunmaq istərdim. Birincisi, bu, yumşaq desək, yalandır. Qarabağ aranlı-dağlı bütün dünyada Azərbaycanın ayrılmaz hissəsi kimi tanınmışdır. Ermənistanın özü bu qanunsuz qurumu tanımır. Qarabağ əsl Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi!"

Dağlıq Qarabağ problemi ilə bağlı dönməz və ardıcıl siyasi iradə nümayiş etdirən Prezident İlham Əliyevin bu cəsarətli mövqeyi xalqımız tərəfindən razılıqla qarşılanır, alqışlanır və bizi tarixi qələbəyə yaxınlaşdırırdı. Prezident hər şeydən öncə bu illərdə güclü ordu-güclü dövlət-güclü iqtisadiyyat strategiyası ilə vəhdətdə, azərbaycançılığa söykənən güclü xalq və kreativ, intellektual Azərbaycan vətəndaşı formulasında xalqın milli mənafeyini qorumağa, ölkəmizdə yaşayan bütün xalqların birgəyaşayış həyat tərzinə hörmət amilini formalaşdırdı.

Bu illər ərzində Ali Baş Komandan ordu quruculuğuna xüsusi diqqət yetirir, ölkənin Silahlı Qüvvələrini Cənubi Qafqazın ən qüdrətli ordusuna çevirirdi. 2021-ci ildə "Global Firepower" təşkilatının yekunlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri "dünyanın ən güclü ordusu" reytinqində 64-cü yerdə qərarlaşıb.

Tariximizin ən şanlı səhifələrindən olan Aprel və İyul döyüşləri kiçik bir məkanı əhatə etsə də, sanki dünyanın böyük bir mövzusuna çevrildi. İyul döyüşündə isə mənfur ermənilərin təxribatı o demək idi ki, Ermənistanın yeni rəhbərliyi Azərbaycana qarşı fəal şəkildə müharibəyə hazırlaşır. Dağlıq Qarabağdan və ümumilikdə münaqişə zonasından kənarda yerləşən Tovuzda 2020-ci ilin iyulunda baş verən təxribat da düşmənin "yeni strategiya"sının tərkib hissəsi idi. Düşmən Tovuz ətrafında yerləşən strateji yüksəklikləri ələ keçirməyə cəhd etdi. Azərbaycan Ordusu düşmən təxribatının qarşısını alsa da, general Polad Həşimov və polkovnik İlqar Mirzəyev, həmçinin bir neçə əsgər və zabitimiz qəhrəmanlıqla şəhid oldu. Avqust ayında düşmənin Tərtər istiqamətində təxribatçı-kəşfiyyat qrupu zərərsizləşdirildi. Qrupa rəhbərlik edən erməni zabiti isə əsir götürüldü. Bütün bunlar Ermənistanın Azərbaycana qarşı növbəti dəfə müharibəyə hazırlaşdığının əyani sübutu idi. Ali Baş Komandanın yaratdığı güclü ordu ilə döyüşlər həm də ermənilərə Azərbaycan adlı məmləkətin nə qədər böyük miqyasa sahib olduğunu bir daha təsdiqlədi.

Buna baxmayaraq, İlham Əliyev var gücü ilə məsələnin qansız-qadasız həllinə çalışır, amma hər zaman müharibə yolunun da istisna olunmadığını vurğulayırdı. Müharibənin başlanğıcı hesab edilən Aprel və İyul döyüşləri zamanı dövlət başçısı tam əminliklə bildirirdi ki, istənilən yolla Azərbaycanın suverenliyi, ərazi bütövlüyü bərpa ediləcək. Dedi və etdi!

Zəfərimizin bir illiyi xüsusi təmtəraqla, həm də Qarabağda, Şuşada, illərlə erməni vandalizminin qurbanına çevrilmiş, ötən ilin 8 noyabrından azad edilmiş tarixi Azərbaycan ərazilərində qeyd edildi. Şuşa nəinki azad edildi, həm də Qarabağda düşmən üzərində tarixi Zəfərimizin bayrağı qaldırılan qala, mədəniyyət paytaxtı, musiqi festivalları şəhəri kimi yeni növrağına qovuşdu...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Qalib lider

*Əvvəli 1-ci səh.*

Türk Şurasına sədrliyi dövründə Azərbaycan türk dövlətləri arasında əlaqələrin daha da genişlənməsi, dərinləşməsi istiqamətində təşəbbüslərlə çıxış etdi. Azərbaycanın sədrliyinin dünyanı çənginə alan COVID-19 pandemiyası dövrünə təsadüf etməsinə baxmayaraq, ölkəmiz türkdilli dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, habelə Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində səylər göstərdi. Azərbaycanın sədrliyi dövründə təşkilat çərçivəsində mövcud əməkdaşlıq istiqamətlərinə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri quruldu. 2020-ci il aprelin 10-da isə Prezident İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə görüşü keçirildi. Bu görüş dövlət və hökumət başçıları səviyyəsində pandemiyaya həsr olunmuş və videokonfrans vasitəsilə təşkil edilmiş ilk beynəlxalq tədbir oldu.

### Bütün türk dünyasının sevinci

İlham Əliyevin səyləri nəticəsində bu gün ən yüksək əməkdaşlıq zirvəsinə qalxan türk birliyinin vacibliyi və əhəmiyyəti Vətən müharibəmiz dövründə bir daha özünü təsdiq etdi. Həmçinin bu gün dünyada baş verən qlobal siyasi proseslər müstəvisində də bütün güclər qarşısına türkün güclü birliyi ilə çıxmaq dövlətlərimizə əlavə qüvvət verir.

Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin başçılarının Türk Dünyasının Ali Ordeninin Azərbaycan Prezidenti İlham Əliyevə verilməsi ilə bağlı qərarları da məhz bu ümumi mənafelərə xidmət edən reallıqlar nəzərə alınaraq qəbul edilib.

Türk dünyasının birlik arzusunu siyasi qətiyyəti ilə gerçəkləşdirən Prezident İlham Əliyevin əzmi sayəsində qazanılan Zəfər türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynayıb.

44 günlük müharibə günlərində və ondan sonra ötən müddət ərzində daim türkdilli dövlətlərin xalqları Azərbaycan xalqına yüksək dəstəklərini nümayiş etdiriblər. Azərbaycanın əldə etdiyi şanlı qələbəni öz zəfərləri kimi dəyərləndirən qardaş xalqların nümayəndələri milli qürur, milli güvən, milli birlik hissi yaşayıblar. Qarabağın, Şuşanın azadlığının simvolu olan "Xarıbülbül" bütün türk dünyası üçün Zəfər müjdəçisi sayılır.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın tarixi ərazilərini işğaldan azad etməsi təkcə türk birliyinə və qardaş türk xalqlarına deyil, bölgədə davamlı sülh və sabitliyin əldə olunmasına da yol açıb.

Türk Dünyasının Ali Ordeni Azərbaycan Prezidentinin böyük şəxsiyyətinə, beynəlxalq miqyasda, həmçinin türkdilli dövlətlər arasında olan yüksək nüfuzuna göstərilən etimadın əyani təcəssümüdür.

Bütün bu ali dəyərlərə və türk dünyasının birliyi və güclü olması üçün göstərdiyi misilsiz xidmətlərə görə yüksək mükafatla təltif olunan İlham Əliyev isə öz növbəsində təşəkkür edərək bildirir ki, mən belə zənn edirəm ki, bu mükafat bütün Azərbaycan xalqına verilmiş mükafatdır...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# "Azərbaycan" qəzetinin şəhid əməkdaşı Elgün İsmayılovun xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinin qalibləri müəyyənləşdi

"Azərbaycan" qəzeti redaksiyasında hər il keçirilən şəhid Elgün İsmayılovun xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinin növbəti mərhələsinə dünən yekun vuruldu. Bu münasibətlə keçirilən tədbirdə "Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Bəxtiyar Sadıqov Elgün İsmayılovun həyat yolundan söz açdı.




Baş redaktor qeyd etdi ki, Elgün İsmayılov qısa, lakin şərəfli yol keçib. 1993-cü ildə hərbi xidmətə çağırılan Elgün torpaqlarımızın azadlığı uğrunda gedən hərbi əməliyyatlarda kəşfiyyat bölüyünün əsgəri kimi qəhrəmanlıq göstərib. 1994-cü ildə Murov dağının Ömər yüksəkliyində həyata keçirdikləri əməliyyat onun son tapşırığı olub. Düşmənlə son nəfəsinə qədər döyüşən Elgün müqəddəs şəhidlik zirvəsinə ucalıb. İgid kəşfiyyatçı Bakıda Şəhidlər xiyabanında dəfn edilib.

Ömrünün 20-ci baharında şəhadətə qovuşan Elgün İsmayılovun əziz və unudulmaz xatirəsi yalnız dünyaya göz açdığı ailədə, oxuduğu məktəbdə deyil, həm də çalışdığı "Azərbaycan" qəzetinin redaksiyasında daim anılır, ehtiramla yad edilir. Hər il noyabrın 16-da redaksiyada Elgün İsmayılovun doğum günü kollektivin iştirakı ilə qeyd olunur. Redaksiya əməkdaşları həmin gün onun uyuduğu Şəhidlər xiyabanına gedir, məzarını ziyarət edirlər.

2003-cü ildən redaksiyada Elgünün döyüş yolunu əks etdirən stend yaradılıb. Həmin ildən başlayaraq redaksiya əməkdaşları arasında Elgünün xatirəsinə həsr olunmuş yaradıclıq müsabiqəsi də keçirilir.

Bəxtiyar Sadıqov bildirdi ki, Elgün İsmayılovun xatirəsinə həsr olunmuş yaradıcılıq müsabiqəsinə redaksiya əməkdaşlarının ənənəvi olaraq vətənpərvərlik və milli-mənəvi dəyərlər mövzularında müxtəlif janrlarda qələmə aldıqları yazıları təqdim olunur. Bu müsabiqənin keçirilməsinin dəyəri həm də ondadır ki, vətənpərvərlik mövzusunda yaradıcılığa geniş meydan verilir. Hər bir əməkdaşa bir neçə yazı ilə çıxış etmək imkanı yaradılır ki, bu, onların öz peşəkarlıqlarını artırmaları baxımından da mühüm əhəmiyyət kəsb edir.

Baş redaktor onu da diqqətə çatdırdı ki, budəfəki yaradıcılıq müsabiqəsi əvvəlkilərdən fərqli ab-havada keçirilir. Bunun da səbəbi ötən ilin Vətən müharibəsində Azərbaycanın qazandığı tarixi hərbi-siyasi qələbədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində 30 ilə yaxın davam edən işğala son qoydu. Prezident İlham Əliyev bu müharibədə sərkərdə qətiyyəti ilə Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, xalqımızın arzularını reallığa çevirdi, milli qürurumuzu yüksəltdi. Təsadüfi deyil ki, budəfəki müsabiqəyə təqdim olunmuş jurnalist yazılarının da hər biri xalqımızın Vətən müharibəsindəki qələbəsi və işğaldan azad olunmuş ərazilərimizdə aparılan bərpa, quruculuq işləri ilə bağlı olmuşdur.

Sonra Bəxtiyar Sadıqov münsiflər heyətinin rəyinə əsasən müsabiqənin qaliblərinin adını açıqladı. Budəfəki müsabiqədə redaksiyanın əməkdaşları - Rəşad Cəfərov, Rəşad Baxşəliyev və Yasəmən Musayeva qalib elan olundular. Qaliblərə fəxri fərman və mükafat təqdim olundu.

Həmin gün redaksiya kollektivi və müsabiqənin qalibləri Şəhidlər xiyabanına gedərək şəhid Elgün İsmayılovun xatirəsini dərin ehtiramla yad etdilər, məzarına gül düzdülər.

***"Azərbaycan"***

# Vətən müharibəsində qəhrəmancasına həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib





Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, müqəddəs torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda Vətən müharibəsində qəhrəmancasına həlak olmuş sərhədçilərin anım tədbirləri keçirilib.





Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, baş leytenant Nəhmətov Ceyhun Ehtiqad oğlu, leytenant Əbdürrəhimli Habil Qabil oğlu, kiçik gizir İbrahimli Nail Nəriman oğlu, əsgər Qasımov Murtaza Elman oğlu və əsgər Hüseynov Vüsal Yahya oğlunun anım mərasimlərində DSX-nin rəhbər vəzifəli şəxsləri, rayon icra hakimiyyətlərinin və hüquq-mühafizə orqanlarının rəhbərliyi, ictimaiyyət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, üzərilərinə gül çələngləri qoyublar.

Mərasim iştirakçıları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində tarixi Qələbəmizdən, düşməni darmadağın etmiş Silahlı Qüvvələrimizin döyüş meydanında rəşadətindən danışıblar.

Vətən müharibəsində xalqımıza qalibiyyət sevinci yaşatmış şəhidlərimizin əziz xatirələrinin hər zaman sonsuz ehtiramla və minnətdarlıqla anılacağı, onların qəhrəmanlıq mirasının gələcək nəsillər üçün hər zaman nümunə olacağı qeyd edilib.

Şəhidlərin ailə üzvləri torpaqlarımızın azad edilməsi uğrunda həlak olan qəhrəmanların xatirələrinin əbədiləşdirilməsi, ailələrinin ziyarət edilməsinin dövlətimizin Vətən müharibəsinin iştirakçılarına göstərdiyi yüksək qayğının, şəhidlərə ifadə edilən ehtiramın göstəricisi olduğunu bildirərək minnətdarlıqlarını çatdırıblar.

# "Qarabağda Urbisid" fotosərgisi Heydər Əliyev Beynəlxalq Aeroportunda nümayiş olunur

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ideya müəllifi olduğu "Karabakh.Center" internet-resursunun çoxsaylı materialları əsasında "Qarabağda Urbisid" fotosərgisi noyabrın 16-dan etibarən Heydər Əliyev adına Beynəlxalq Aeroportunda nümayiş olunur.

Qarabağ Dirçəliş Fondundan AZƏRTAC-a bildiriblər ki, Dövlət Gömrük Komitəsinin təşəbbüsü ilə Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin "Terminal-1 Beynəlxalq Hava Limanı" gömrük postunun ərazisində nümayiş olunan sərgi bir ay müddətində davam edəcək.

Sərgiyə cəlb olunan Dövlət Gömrük Komitəsinin "Könüllü gömrükçü" dəstəsinin üzvləri gün ərzində hava nəqliyyatı ilə səfərini təşkil edən sərnişinləri nümayiş olunan fotoşəkillər, eyni zamanda Qarabağ Dirçəliş Fondunun fəaliyyəti barədə məlumatlandıracaqlar.

Sərgi 30 illik işğal dövründə Qarabağdakı maddi-mədəni irsimizə, regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyasını göstərmək məqsədilə təşkil edilib.

Qarabağ Dirçəliş Fondunun fəaliyyətində ermənilərin azad olunmuş ərazilərimizdə törətdikləri dağıntılar, həyata keçirdikləri qeyri-qanuni hərəkətlər və işğal nəticəsində Qarabağa dəyən zərər barədə məlumatların geniş ictimaiyyətə çatdırılması xüsusi önəm daşıyır. Belə ki, işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində görülən işlərə cəmiyyətin bütün üzvlərinin dəstək göstərməsi Qarabağa vurulan ziyanın həcmi barədə məlumatlandırılmasından birbaşa asılıdır.

Bu məqsədlə Qarabağ Dirçəliş Fondu ermənilərin işğal altındakı ərazilərdə törətdikləri dağıntıları əks etdirən "Qarabağda Urbisid" fotosərgisini mütəmadi olaraq fərqli platformalarda təşkil edir.

Məlumat üçün bildirək ki, eyniadlı sərgi oktyabrın 1-dən etibarən Bakı şəhərinin böyük alış-veriş mərkəzlərində - "Gənclik Mall", "Port Baku Mall", "28 Mall"da da nümayiş etdirilir.

Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri, Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılan "Karabakh.Center" (https://karabakh.center/az) internet resursunun çoxsaylı materialları konkret nümunələr əsasında Azərbaycan xalqının Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır.

Bu layihədə işğaldan azad edilən ərazilərdə ermənilər tərəfindən dağıdılmış və ciddi ziyan dəymiş obyektlərin 10 mindən çox fotofaktları və videogörüntüləri yer alır. Bütün fotoşəkillər və videolar saytın "Urbisid" bölməsində yerləşdirilib. Bölmədə həmçinin memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş yüzlərlə fotoşəkilləri ilə də tanış olmaq mümkündür.

Qeyd edək ki, Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (https://qdf.gov.az/).

# Vətən Müharibəsi Qəhrəmanı şəhid Mehrab Niftəliyevin anım mərasimi keçirilib

Sumqayıtda Vətən Müharibəsi Qəhrəmanı, Azərbaycan Silahlı Qüvvələrinin baş giziri, şəhid Mehrab Niftəliyevin anım mərasimi keçirilib.





Şəhər icra hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, ictimaiyyətin nümayəndələrinin iştirak etdikləri mərasimdə şəhidin keçdiyi döyüş yolundan danışılıb, göstərdiyi şücaət və qəhrəmanlıqlardan söz açılıb. Baş gizir Mehrab Niftəliyev Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda ötən il sentyabrın 27-də başlanan Vətən müharibəsində Füzuli, Cəbrayıl və Şuşanın azad olunmasında iştirak edib. Noyabrın 8-də Şuşa döyüşlərində şəhid olan M.Niftəliyev Sumqayıt şəhərinin Şəhidlər xiyabanında dəfn edilib. O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı, eləcə də "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Mərasimin sonunda şəhər rəhbərliyi şəhid və qazi ailələrinin qayğıları ilə maraqlanıb və onların həlli istiqamətində tədbirlər görülməsi üçün müvafiq qurumlara göstəriş verib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Ağdam Sənaye Parkının inşasına başlanılıb

İşğaldan azad edilmiş Ağdam şəhərində Sənaye Parkının inşasına başlanılıb. İlkin olaraq Sənaye Parkında sosial sahənin tikintisi həyata keçirilir. Artıq parkın bu sahəsində inşaat işləri yekunlaşmaq üzrədir.




Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov AZƏRTAC-a bildirib ki, Sənaye Parkında ilkin olaraq inşa edilən ərazidə sənaye zonasının tikintisində çalışacaq fəhlə və mühəndis kollektivinin yaşayışı üçün lazımi şərait yaradılacaq. Sosial sahədə inzibati bina, ofis və resurs təlim mərkəzi, bank və sığorta xidmətləri, gömrük xidməti, laboratoriya, idman və sağlamlıq mərkəzi, idman meydançası, tibb məntəqəsi, qonaq evi, köşk, kafe, bərbərxana, camaşırxana, avtopark və istirahət parkı fəaliyyət göstərəcək.

Ümumilikdə isə Ağdam Sənaye Parkında İqtisadi Zonaların İnkişafı Agentliyi üçün mobilizasiya, qida sənayesi müəssisələri, kiçik istehsal və xidmət müəssisələri, istehsal sahəsi, tikinti materiallarının satışı, TIR parkı, texnika təmiri sahəsi, texniki zona və iri sənaye müəssisələri üçün nəzərdə tutulmuş sahələr olacaq. Burada tikinti materiallarının istehsalı müəssisələrinin yaradılması, kənd təsərrüfatı məhsullarının qablaşdırılmasının, meyvə-tərəvəz konservlərinin, ət və süd məhsullarının, şərab, yem, gübrə istehsalı və emalının, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların təşkili planlaşdırılır.

Sənaye mərkəzində kiçik istehsal və xidmət müəssisəsi, iri sənaye və qida sənayesi müəssisələri də fəaliyyət göstərəcək. Yaxın zamanlarda ilk bir neçə belə müəssisənin tikintisinə başlanması gözlənilir. Ağdamın strateji coğrafi mövqeyi, insan resursları potensialı və infrastruktura çıxış imkanları rayonun gələcəkdə Qarabağın sənaye mərkəzinə çevrilməsi imkanlarını genişləndirir.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərin müqayisəli üstünlükləri əsasında 4 regional mərkəzin yaradılması nəzərdə tutulub. Ağdamda sənaye mərkəzi, Cəbrayılda logistika və ticarət mərkəzi, Şuşada mədəniyyət və turizm mərkəzi, Kəlbəcərdə hasilat və turizm mərkəzi yaradılacaq.

# Azərbaycan əhalisinin sayı 10 milyon 147 min 380 nəfərə çatıb

**İlin əvvəlindən ölkə əhalisinin sayı 28 min 247 nəfər və ya 0,3 faiz artaraq 2021-ci il oktyabr ayının 1-i vəziyyətinə 10 milyon 147 min 380 nəfərə çatıb.**

Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən məlumat verilib.

Bildirilib ki, əhalinin 53 faizini şəhər, 47 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Bir kvadratkilometrə düşən əhalinin sayı 117 nəfər olub.


## B İ L D İ R İ Ş

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi tərəfindən "Neyrocərrahiyyə əməliyyatlarında istifadə olunan mikro alətlər və spesifik sərfiyyat materialları"nın satın alınması üzrə açıq tender metodu tətbiq edilməklə keçirilmiş elektron satınalma prosedurunun qalibi "Araş" firması müəyyən edilmişdir.

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsi ilə "Araş" firması arasında 05.11.2021-ci il tarixdə ƏDV daxil olmaqla ümumilikdə 387 069.50 (üç yüz səksən yeddi min altmış doqquz manat 50 qəpik) manat məbləğində satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmiləri üçün separatorların satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 noyabr 2021-ci il saat 17:00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**

**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidməti dezinfeksiya işlərinin görülməsinin *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (012) 525 55 45 (daxili - 6029) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 01 dekabr 2021-ci il saat 11:00-dək Bakı şəhəri Yasamal rayonu, M.Naxçıvani küçəsi, 25A ünvanında qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 26 oktyabr 2021-ci il tarixdə **www.etender.gov.az** portalında və 27 oktyabr 2021-ci il tarixdə "Azərbaycan" qəzetində elan olunmuş "25-ci Beynəlxalq Biznes-Forumun keçirilməsi məqsədilə tədbirin təşkili işlərinin satın alınması" ilə əlaqədar keçirilmiş təkliflər sorğusunda "CASPİAN EVENT ORGANİSERS" MMC qalib şirkət elan olunmuşdur. Qalib MMC ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Gənc idmançı doğma yurdu Zəngilanda çalışmaq arzusundadır

Yaş o qədər də əhəmiyyət daşımır, ən başlıcası, insanın əməlləri ailəyə, cəmiyyətə xeyri ilə ölçülür. Murad Hacızadə 22 yaşındadır. Təbii ki, bu gəncin də qəlbində arzuları çoxdur. Uşaq yaşlarından bağlandığı idman isə zehnində qurduğu dünyanın şah əsəridir.



Murad dünyaya gələndə artıq 6 il idi Zəngilan işğal edilmişdi. Hələ uşaq ikən atasının söhbətlərini dinləyə-dinləyə doğma rayonları ilə bağlı çox şeyi hafizəsinə yazırdı. Həyətdə uşaqlara həvəslə atasından eşitdiklərini danışar, deyərdi ki, oralar çox gözəl yerlərdir.

Atası Dilavər kişi o günləri belə xatırlayır:

*- Bir gün məktəbdən gəlib sakitcə əyləşdi. Nə baş verdiyini soruşdum. Kövrək-kövrək dilləndi ki, hamı tətildə öz kəndlərinə, rayonlarına gedir. Biz isə Zəngilana gedə bilmirik. Görəsən, nə vaxt biz də hamı kimi sən dediyin yerlərə gedəcəyik? Düzü, karıxıb dərhal bir söz deyə bilmədim. Sonra təsəlli verdim ki, oralar bizi gözləyir, İnşaallah gedərik. Ertəsi gün məktəbdə danışmışdı ki, tezliklə mən də öz rayonuma - Zəngilana gedəcəm.*

Sumqayıt şəhər 13 saylı tam orta məktəbdə təhsil alan Murad məktəbin bütün idman tədbirlərində yaxından iştirak edirdi. Dəfələrlə fəxri fərman, qiymətli hədiyyələrlə mükafatlandırılmışdı.

Murad bildirir ki, atası da idmançı olub:

- O, Zəngilanda olanda dəfələrlə turnirlərdə iştirak edib. Mən gözümü açıb atamı idmanla məşğul olan görmüşəm. Hər səhər yuxudan duran kimi məni yanına çağırar, onun hərəkətlərini təkrarlamağımı tapşırardı. İdmana maraq göstərməyimin ən böyük səbəbkarı məhz atamdır.

Beləcə, həyat yolu Muradı idmana aparıb. 7 yaşından karate idman növünü seçib və müəllimi Rafael Məmmədovun yanında məşqlərə başlayıb. Sumqayıt və respublika birinciliklərində iştirak edib. Həmişə birinci yerə layiq görülən Murad 10 yaşında beynəlxalq turnirə vəsiqə qazanıb. 2010-cu ildə Xarkovda keçirilən beynəlxalq yarışda 10-11 yaşlılar arasında 2 komanda və şəxsi hesabda bürünc mükafata layiq görülüb. Şəxsi döyüşdə rusiyalı və ukraynalı idmançılara qalib gələrək qarşıda keçiriləcək yarışlara lisenziya qazanıb. 2013-cü ildə respublika çempionatında iştirak edib. Həmin seçmə turnirdə rəqiblərini üstələyib. Elə həmin il İstanbulda keçirilən beynəlxalq turnirdən sonra daha geniş xəritədə yarışlara qatılıb.

Rumıniyada keçirilən Koniya uşaq oyunlarında komandalararası Avropa çempionatında bürünc mükafat alan Murad Xorvatiyanın Unaq şəhərində beynəlxalq turnirdə də iştirak edib və vətənə bürünc medalla qayıdıb. 2015-ci ildə karatenin şotakan növü üzrə Gürcüstanda dünya çempionatından, 2017-ci ildə Bolqarıstanın Sofiya şəhərində Avropa birinciliyindən, növbəti ildə Xorvatiyada keçirilən yarışlardan vətənə çempion kimi gəlib. 2018-ci ildə Danimarkadakı yarışda rəqiblərini üstələyib və yenə də qalib gəlib.

Murad Hacızadə deyir:

- 2019-cu ildə Xorvatiyadakı çempionat xüsusilə yadımdan çıxmır. Həmin yarışda iştirakçılar titullara sahib idmançılar idi. Lakin rəqiblərimlə üzləşəndə özümə dedim ki, Azərbaycan bayrağını qaldırmalıyam. Dediyim kimi də oldu... İdman təkcə yarış deyil, həm də mənsub olduğun xalqın tanıtım brendidir.

Murad özü hazırda Sumqayıt şəhər 2 saylı uşaq-gənclər idman məktəbində karate bölməsində məşqçi-müəllim kimi çalışır. Özünün dediyi kimi, gələcəyin idmançılarını yetişdirir. Həm də qarşıda gələn ilin martında keçiriləcək Avropa çempionatına hazırlaşır. Azərbaycan bayrağını qaldırmaq, mənsub olduğu xalqın cəsarətini idman meydanında göstərmək onun şərəf borcudur. Bunun öhdəsindən layqincə gələcəyinə əmindir.

Qeyd edək ki, Murad orta məktəbi bitirdikdən sonra Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil alıb. Həqiqi hərbi xidmətdə olub. Əsgərlik etdiyi zaman Vətən müharibəsi başlayıb. Onların hərbi hissəsi başqa statusda olsa da, dəfələrlə döyüşlərdə iştirak etmək üçün müraciət ediblər:

- Müharibənin ilk günündən sonunadək nə qədər can atsaq da, bizi döyüşlərə buraxmadılar. Zəngilan azad ediləndə sevincimdən ağladım. Komandirimiz bildirdi ki, sizin xidmətiniz elə müharibədə iştirak kimidir.

Muradın atası I Qarabağ savaşının iştirakçısıdır. Əmisi Elsevər həmin dövrdə döyüşlərin birində şəhid olub.

Murad Hacızadə söhbətinə davam edərək deyir:

- Eşitdiklərimdən xəyallarımda bir Zəngilan yaratmışdım. Oranı görmək mənim ən böyük arzum idi. Çünki yeddi arxa dönənim orada yaşayıb, əmim o torpaqlar uğrunda şəhidlik zirvəsinə qovuşub. Zəngilan artıq azaddır. Bu yaxınlarda rayonumuzun işğaldan azad olduğu gün təşkil edilən görüşdə mən də var idim. Prezident İlham Əliyevlə, Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşümüz oldu. Xeyli söhbət etdik. Mən bir daha bütün qələbələrimiz üçün - istər döyüş meydanında olsun, istərsə də idmanda - Prezidentimizə minnətdaram. Hansı yarışa getmişəmsə, Azərbaycandan olduğumu biləndə deyiblər ki, belə Prezidentiniz olduğu üçün xoşbəxtsiniz.

Murad Zəngilanda keçirilən görüşlə bağlı xeyli söhbət etdi. Dedi ki, biz oraya çatanda narın yağış yağırdı. Bir qədər sonra buludların arxasından Günəş öz şəfəqlərini hər tərəfə yaydı. Sanki ana təbiət bizim Zəngilana gəlişimizi bu yolla salamlayırdı.

Murad tezliklə zəngilanlıların doğma el-obasına dönəcəyi günü gözləyir. O da həmin torpaqlarda çalışmaq arzusundadır.

**Akif ƏLİYEV,**
**"Azərbaycan"**

# Zəfər bayrağımız əbədi dalğalanacaq

## Bu Qələbədə böyükdən-kiçiyə hər kəsin, xüsusən zirvələri fəth edən cəsur hərbçilərimizin böyük xidməti oldu

Qarabağ!

Tarixin sərt sınaqlarına zaman-zaman məruz qalan ana yurdum, sən bir ildir ki, azadsan! Sənin azadlığın xalqımın başucalığıdır, çünki övladlarımıza əmanət edilən milli sərvətimizsən!



Şuşam, sənin azadlığın uğrunda canından, qanından keçən igidlərimizin ziyarət yerisən! Mədəniyyətimizin paytaxtı, mənəviyyatımızın şah tacısan! İndi qollarını geniş açıb, illərlə səndən uzaq düşən balalarını həsrətlə gözləyən Anasan!

Şuşam, biz gəlmişik! Sən Qarabağsan! Qarabağ Azərbaycandır!

Bəli, o gün "Zəfər" yolu ilə Şuşaya səfərimizin məndə yaratdığı ilk təəssüratları, hissləri olduğu kimi sözlə ifadə etmək mümkün deyil...

Ali Baş Komandanın müdrik siyasəti nəticəsində öncə güclü ordu yarandı, sonra 4 günlük Aprel döyüşləri başlandı. Həmin döyüşlər bizə çox şeyi anlatdı. İlk növbədə, zəif və güclü tərəflərimizi hiss etdirdi. Sonrakı 4 il ərzində ordumuz daha da gücləndi. Nəhayət, 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə tarixə qızıl hərflərlə yazılan 44 günlük "Dəmir yumruq" əməliyyatı başladı. Hakimiyyət-Ordu-Xalq birliyi yarandı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan təkbaşına dünyanın az qala yarısı ilə diplomatik müstəvidə informasiya savaşı apararkən şanlı ordumuz düşmənə hər gün layiq olduğu cavabı verir, onu əks-hücum əməliyyatları ilə geri çəkilməyə məcbur edirdi.

Vətən savaşında yaşından və sosial mənsubiyyətindən asılı olmayaraq, hər kəs birləşdi: böyükdən-kiçiyə, məktəblidən-təqaüdcüyə qədər. Xalq bir yumruq olmağı bacardı. "Dəmir yumruq" düşmənin başına endiriləndə ayıldılar ki, Azərbaycan heç də əraziləri işğala məruz qaldığı 1990-cı illərin əvvəlindəki kimi, iqtisadi, hərbi cəhətdən zəif olan ölkə deyil. Azərbaycan bu gün hərb meydanında sözünü deməyi bacaran və XXI əsrin müharibəsini apararaq, qalibiyyət bayrağını qaldıracaq Silahlı Qüvvələrə malik dövlətdir. Elə buna görə də dünyada qalib xalq olaraq tanındıq.

Müharibə gec-tez başlamalı idi. Bu, qaçılmaz və labüd idi. Çünki Ermənistan havadarlarına güvənərək, sülh danışıqlarını 30 ilə yaxın müddətdə pozmaqla münaqişənin "ömrünü uzadırdı" ki, bu da yolverilməz idi. Hətta ermənilər o qədər azğınlaşmışdılar ki, ötən ilin iyul ayında Azərbaycanın dövlət sərhədini pozaraq hücüm etdilər və bundan sonra layiq olduqları "Dəmir yumruq"la qarşılaşdılar.

Hər kəs yumruq kimi Ali Baş Komandanın ətrafında birləşdi, bu da qısa bir müddətdə bizə qələbə qazandırdı.

Beynəlxaq birlik ölkəmizin ərazi bütövlüyünü tanıyırdı. Bu üzdən seyrçi qalmalı oldu. Bəzi ölkələr isə təəssüf ki, haqlı olduğumuzu bilsələr də, qələbəmizi həzm edə bilmirdilər. Müxtəlif vasitələrlə bizə təzyiqlər göstərir, hətta haqq işimizə mane olmağa çalışırdılar. Lakin Ali Baş Komandanın haqlı tələbləri hər kəsi yerində oturtdu.

Qismən səfərbərlik elan olunduğu üçün biz internat məzunları yaş həddinə görə döyüşlərə qatıla bilməsək də, ordumuzun yanında olmağa çalışdıq. Onu da deyim ki, "İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyinin üzvləri döyüşlərə qədər də ön cəbhədə düşmənlə üz-üzə olan Vətən oğullarımızı heç vaxt unutmayıb. Müxtəlif formada onların yanında olmuş, mənəvi dəstək göstərmişdir.

27 sentyabr 2020-ci il tarixindən sonra isə, ilk növbədə, könüllü olaraq döyüşlərə gedən internat məzunlarının ailələrinə dəstək olduq. Onların sıxıntı çəkməməsi üçün lazımi ərzaq yardımları çatdırdıq. Eyni zamanda ordumuzun təminatı üçün arxa cəbhədən müxtəlif yardımlar daşıdıq. Konkret olaraq deyim ki, hər həftənin cüt günləri "166" Yükdaşıma Xidməti bizə ödənişsiz ayırdığı maşınlarla ön cəbhəyə isti geyim, müxtəlif tibbi vasitələr, dərmanlar, sarğılar... çatdırırdıq. Bu xidmətimiz 44 gün ərzində davam etdi.

Əlbəttə, haqq davamız dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizi də məyus etdi. 44 günlük Vətən müharibəsi bəzi dost bildiyimiz ölkələrin, əslində, iç üzünü də bizə açıb göstərdi. Dostumuzu, düşmənimizi bir daha tanıdıq.

Yeri gəlmişkən, bu müharibə Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda aparılan haqq savaşı olduğu üçün bütünlüklə xalqımız iştirak edirdi. Əlbəttə, bu işdə ata-anasından uzaq, uşaq evlərində, dövlət himayəsində böyüyən gənclərin də üzərinə böyük məsuliyyət düşmüşdü. Bir faktı deyim ki, 3 saylı uşaq evində böyüyən, hərbi təhsilli, baş leytenant Elçin Kazımov da bu savaşlarda zabit kimi düşmənə öz iradəsini, gücünü göstərdiyi üçün qürur hissi keçirdik. 1-ci batareyanın top komandiri olan Elçin Kazımov düşmənin başına yumruq endirməklə Vətənə oğulluq borcunu yerinə yetirdi. Azərbaycan Prezidentinin sərəncamları ilə Cəbrayılın, Xocavəndin, Hadrutun azad edilməsinə görə və "Cəsur döyüşçü" medalları ilə təltif edilən dostumuzla fəxr edirik. Və belə məzunlarımız az olmadı.

Qəribəsi odur ki, biz bu torpaqları görmədən, tanımadan sevdik. Mənə Şuşanı görmək, ziyarət etmək, oranın havasını udmaq nəsib oldu. "Zəfər" yolu ilə Şuşaya doğru irəlilədikcə düşüncəyə dalmışdım və gözlərim sevincdən dolmuşdu. Düşünürdüm ki, 30 illik ayrılığın sevinc gözyaşları ilə əvəz olunması üçün neçə qəhrəmanımız şəhadətə yüksəldi, neçə-neçə cəsur, qorxmaz igidimiz qazi oldu.

Bu da Zəfərimizin bir ili! Xalqımız haqlı olaraq dünyanın hər yerində Qələbə sevinclərini bölüşərək, dünyada, cahanda sülh tərəfdarı olduğunu bir daha nümayiş etdirdi.

***Araz ƏHMƏDOV,***
***"İnternat Məzunlarının Sosial İnteqrasiyası" Gənclər İctimai Birliyinin sədri***

# Qəhrəmanlıq salnaməsi



8 noyabr 2020-ci il - Ali Baş Komandan və şanlı Azərbaycan Ordusunun yazdığı Zəfər tarixi! Bəli, bu, böyük Qələbə, şanlı tariximizə daxil olan Zəfər günüdür!

Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA qoyduğu gündür! İki gündən sonra isə işğalçı, terrorçu, vandalizm siyasəti ilə tarixi ərazilərimizi 30 ilə yaxın tapdaqda saxlayan, hər şeyi, hər yeri viran qoyan Ermənistan diz çökərək kapitulyasiya aktına qol çəkəcəkdi...

Qüdrətli Sərkərdə, ata vəsiyyətini yerinə yetirən xoşbəxt bir oğulun da həyatına və Prezidentlik fəaliyyətinə qızıl hərflərlə yazılacaqdı o gün...

## ATA vəsiyyəti, OĞUL hünəri

...44 günlük zəfər yürüşündə döyüşlərin aparılması, taktikaların və strategiyaların müəyyən edilməsi, ordu birləşmələrinin hərəkət trayektoriyaları, əməliyyatların hazırlanması və sair planlar birbaşa Ali Baş Komandan İlham Əliyevin nəzarəti altında işlənilir və həyata keçirilirdi. Ordunun başında dayanan Sərkərdə İlham Əliyev düşmənə vurulan ağır, sarsıdıcı zərbələrin hər birində mühüm missiyasını həyata keçirməklə yanaşı, həm də siyasi fəaliyyətini davam etdirirdi. Ali Baş Komandan informasiya savaşlarında da qalib olduğumuzu təsdiqləyirdi: dünyanın aparıcı, nüfuzlu media qurumlarına Azərbaycanın apardığı haqq-ədalət işini çatdırırdı. Bütün bu kimi ağır, məsuliyyətli işlərin, siyasətin öhdəsindən isə yalnız qətiyyətli, dəmir iradəli Lider, böyük strateq gələ bilərdi.

Biz tarixi qələbəmizdən sonra qalib Sərkərdə kimi Ali Baş Komandanın işğaldan azad olunmuş ərazilərimizə səfərlərini xatırlamaya və oradan verdiyi bəyanatlarındakı incə məqamları, gələcəyə hesablanmış siyasəti də görməyə bilməzdik. "Mən bura Ordum ilə gəlmişəm" ifadəsini bəyan etməklə Ali Baş Komandan düşmənə mesaj verirdi ki, artıq güclü, qüdrətli Azərbaycan Ordusunun qarşısını heç bir cəhd ilə almaq mümkün deyil.

30 il boyunca dağıdılmış, viran qoyulmuş, talan edilmiş ərazilərimizin qısa müddətdə bərpası üçün də mühüm qərarlar verən Ali Baş Komandan dünyaya onu da çatdırdı ki, Azərbacan xalqı və dövləti bütün çətinliklərdən, sınaqlardan qalib çıxmaq əzmindədir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri, əslində, Ali Baş Komandanın bir neçə il əvvəl səsləndirdiyi "Qarabağ Azərbaycandır!" bəyanatının möhtəşəm nidasıdır.

Müzəffər Sərkərdəmiz işğaldan azad edilən doğma torpaqlarımızda bu haqq nidasının rəsmiləşdirilməsinin xoş müjdəsini verdi. Müzəffər liderliyin ali təcəssümü: Ata vəsiyyətini yerinə yetirən qürurlu övlad!

Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən böyük şəxsiyyət kimi adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytarmaqla yanaşı, həm də tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətlərlə birlikdə onu da deməliyik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ardıcıl və uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı. Eyni zamanda bu gün Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə kimi tanınmaqdadır. Dövlət başçısı sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda apardığı mübarizədən döndərə bilməz. Bu dövrdə dövlət başçısı həm də müxtəlif təzyiqlərlə də üzləşdi. Lakin onların hamısına qətiyyət və cəsarətlə sinə gərdi: siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanı yürütdüyü 30 illik işğalçılıq, talançılıq, barbarlıq, terrorçuluq əməllərinə görə cəzalandırdı. Xüsusilə əziz Şuşamızın işğaldan azad olunması münasibətilə Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edən Ali Baş Komandan İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə bildirdi. Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi İlham Əliyevin möhtəşəm yer alacağına inanırdı. Uzaqgörən və əbədi Liderimizin Şuşa ilə bağlı vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Bu, böyük, qürurverici tarixi hadisə idi.

Dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması isə artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi!

## Şuşa, alınmaz qala, həlledici zirvə, zəfər möhürü...

2020-ci il sentyabrın 27-də Azərbaycanın ermənilərin artıq çoxdan həddini aşmış təxribatlarına qarşı adekvat cavab verməsi vaxtı çatmışdı. Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi uğrunda apardığı Vətən müharibəsinin həlledici mərhələsi yaxınlaşırdı. Zəfər salnaməsinin möhürünün məhz Qarabağ xanlığının tarixi paytaxtı Şuşada vurulmasının rəmzi mənası var idi. Şuşanın azad edilməsinin mahiyyətinin böyüklüyünü Ali Baş Komandanın bu qələbəni Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsinə ehtiramını bildirməklə, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizələrimizin rəmzi olan Şəhidlər xiyabanından elan etməsi bir daha təsdiqlədi.

Şəhidlər xiyabanında tarixi nitqi zamanı ölkə rəhbəri dedi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm..."

## Qələbəmizin rəmzi Şuşa, sən azadsan!

Azərbaycan Prezidentinin həmin tarixi müraciətində diqqəti xüsusilə çəkən məqamlardan biri də bu fikirlər oldu: "...Mən bu gün eyni zamanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Bəli, dövlət başçısı hər zaman verdiyi vədə sadiq qalıb, onları bir-bir yerinə yetirib. Ulu Öndər Heydər Əliyevin Şuşa ilə bağlı vəsiyyətini də bir oğul, övlad kimi yerinə yetirdi. Budur xoşbəxtlik, budur varislik, budur sadiqlik...

Millətinə QƏLƏBƏ, ZƏFƏR sevincini yaşadan Prezident İlham Əliyev Azərbaycanda və bütün dünyadakı soydaşlarımızın ürəyində elə sevgi təlatümü kükrətdi ki, bu, indiyədək heç bir Azərbaycan rəhbərinə qismət olmayıb. Azərbaycanın uzun "illərin tilsiminə" düşən Qarabağ düyününü açmaq kimi müşkülü həll etmiş, ordusunu Müzəffər, xalqını Qalib etməyi bacarmışdı. Böyük Qələbəmizin memarı Prezident İlham Əliyevin də həm Qarabağda, həm də Azərbaycan boyu abidələri ucaldılacaq! O abidələrin ən möhtəşəmi, ən sevimlisi, ən yenilməzi isə artıq ucalmaqdadır - uşaqdan-böyüyə hər bir azərbaycanlının ürəyində!

Azərbaycan Ordusunun Şuşa döyüşlərində göstərdiyi şücaəti xarici media mənbələri də işıqlandırdı. Rusiya medialarından birində belə məqamlar da var: "Belə döyüş, dövlət, vətən sevgisi görən olubmu, demək çətindir?! Dağ yuxarı, şəhidi çiynində, döyüşə-döyüşə qan-tər içində qalxırdı Azərbaycan Ordusu. Nə yaralını, nə şəhidi əldən buraxırdılar. Nəfəs almadan Şuşaya çıxdılar..."

... Vətən müharibəsində Azərbaycan bayrağının Qafqazın mədəniyyət beşiyi, incisi olan Şuşada dalğalanması düşmən üzərində tam Qələbə rəmzi idi. 44 günlük Zəfər yürüşü, haqq-ədalətin bərpa prosesi Şuşa ilə taclandırıldı!!!

Azərbaycan xalqı öz torpaqlarını işğaldan azad etməklə tarixinin ən şərəfli səhifəsini yazdı. Azərbaycan Prezidentinin polad iradəsi, Azərbaycan Ordusunun yenilməz gücü və Azərbaycan xalqının sarsılmaz birliyinin rəmzi olan "Dəmir yumruq" qarşısında düşmən diz çökdü! Bundan sonra qala şəhəri 30 il öncəki növrağına qayıtdı: Şuşa mahnı, musiqi fesivallarına meydan açdı. Şuşalılar da Füzulidən başlayan "Zəfər" yolu ilə doğma yurda qədəm basdılar...

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Qayğıkeşliklə anılan Masallı şəhidləri

Ötən il sentyabrın 27-də başlayıb, noyabrın 10-da böyük Zəfər qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsinin birinci ildönümü ərəfəsində paytaxt Bakıdan tutmuş ölkəmizin ən ucqar bölgələrinədək bu tarixi Qələbənin möhtəşəmliyindən, şəhid, qazi, əsgər və zabitlərimizin qəhrəmanlığından bəhs edən neçə-neçə ədəbiyyat nümunəsi, kitablar nəşr edilmişdir. Onlardan biri də yazıçı-publisist Nurəddin Ədiloğlunun müəllifliyi ilə Masallı Təhsil Fondu tərəfindən nəşr edilmiş "Şəhidlik manifesti" kitabıdır.




Məsləhətçi Azərbaycan Respublikası Milli Məclisinin deputatı Məşhur Məmmədov, rəyçi tarix elmləri doktoru, professor Həsənbala Sadıqov, redaktor Nüşabə Səməndərdir. Nəfis şəkildə tərtib olunmuş 384 səhifəlik bu kitabda Masallıdan və digər rayonlardan 44 günlük Vətən müharibəsində həlak olmuş Milli Ordumuzun əsgər və zabitləri haqqında bədii-publisistik nümunələr toplanıb.

İlk səhifəsi Ümummilli Lider Heydər Əliyevin "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət etmək deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik" deyimi ilə açılan əsərdə oxucular xalqını, torpağını canından çox sevən əsl Vətən övladlarının döyüş yolu ilə yaxından tanış olurlar. Onlar 30 ilə yaxın erməni işğalında olan tarixi dədə-baba ərazilərimizi erməni işğalından azad etməklə ölkəmizin ərazi bütövlüyünü bərpa etmiş, millətin şərəf və ləyaqətini qorumuş, ordumuzun gücünü və qüdrətini bütün dünyaya göstərmişlər.

Kitabın ilk səhifəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın oxuculara müraciətində deyildiyi kimi:"...Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir. Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canlarından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

"Şəhidlik manifesti"ni vərəqlədikcə insanların qürur mənbəyinə çevrilən, vətəni düşmən təcavüzündən cəsurluqla qoruyan gənclərimizlə öyünürük. Kitabda şəhidlərin valideynlərinin, müəllimlərinin, yaxın qohumlarının, hətta əsgər yoldaşlarının xatirələri də yer alıb. Xatırladaq ki, Birinci və İkinci Qarabağ savaşında Masallının 250-dən çox mərd oğlu Vətənimizin düşmən tapdağından xilas olması üçün canından keçib. Onlar Azərbaycanın, xalqımızın, ulu bir millətin varlığını yaşatmaq üçün şəhidlik zirvəsinə ucalıblar.

Milli Məclisin deputatı Məşhur Məmmədovun kitaba yazdığı ön sözdə deyildiyi kimi, "Təşəbbüsümüzlə araya-ərsəyə gələn bu kitab İkinci Qarabağ savaşında həlak olan Masallı şəhidlərinə həsr olunub. Onların arasında ölkənin başqa ərazilərində qeydiyyatda olmuş və oradan müharibəyə gedən, əslən Masallıdan olan gənclər də var. 61 şəhid - yarımçıq qalmış 61 insan ömrü... Ancaq Vətən uğrunda şəhid olmaq həyatın davamı deməkdir! Onlar şəhid olsalar da, tarixi ədaləti bərpa etməklə yanaşı, 1988-ci ildən bəri erməni silahlıları ilə mübarizədə həlak olan bütün şəhidlərimizin, günahsız insanlarımızın qanını yerdə qoymadılar".

Geniş oxucu auditoriyası üçün nəzərdə tutulan "Şəhidlik manifesti" çox güman ki, stolüstü kitaba çevriləcək, gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynayacaq, Vətən müharibəsi haqqında bilgilərini zənginləşdirəcək, habelə tədqiqatçılar üçün faydalı mənbələrdən biri olacaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Zülmətdən işıqlığa

### Qarabağ və Şərqi Zəngəzurda zəngin elektroenergetika infrastrukturu yaradılır



**İşğaldan azad edilmiş ərazilərimizdə bir-birinin ardınca enerji obyektləri istifadəyə verilir və beləliklə, onların sayı getdikcə artır. Bu, sürətlə gedən yenidənqurma işləri sırasında kənd və şəhərlərin elektrik enerjisi ilə təchizatının xüsusi önəm kəsb etdiyini bir daha təsdiqləyir.**

Elektrik enerjisi, ümumiyyətlə, iqtisadiyyatın bir çox sahələrinin inkişafını təmin edir. Qarabağda və Şərqi Zəngəzurda qurulan enerji infrastrukturu isə üstəlik, neçə illərdir yurd həsrəti çəkən insanların doğma torpaqlarına qayıtmasını tezləşdirir.

Qarabağ və Şərqi Zəngəzur getdikcə daha çox nura boyanır. "Azərenerji" ASC-nin az bir zamanda Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl, Zəngilan və Qubadlıda tikdiyi 110 kV-luq yeni yarımstansiyaları göstərmək kifayətdir.

Şuşanın çırağı işğaldan əvvəlki vaxtda olduğundan da gur yanacaq. Burada 110/35/10 kilovoltluq "Şuşa" yarımstansiyası istifadəyə verilib, şəhəri nura qərq edib. "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin isə cəmi 73 günə tikilməsi regionun energetikasında yeni rekord oldu. Xatırladaq ki, Şuşa şəhərinin Azərbaycanın ümumi enerji sisteminə qoşulması, etibarlı, dayanıqlı və fasiləsiz elektrik enerjisi ilə təchiz edilməsi məqsədilə şuşa" yarımstansiyasının və Füzuli rayonunun "Şükürbəyli" yarımstansiyasından 75 kilometr məsafə boyu 110 kilovoltluq "Şükürbəyli-Şuşa" hava elektrik verilişi xəttinin tikintisinə keçən ilin dekabrında başlanmışdı.

Prezident İlham Əliyev regiona hər səfəri zamanı yeni enerji obyektlərinin açılışını edir. Qarabağ və Şərqi Zəngəzur regionuna növbəti səfəri zamanı dövlət başçısı 110/35/10 kV-luq "Zəngilan" yarımstansiyasının açılışını etdi, Rəqəmsal Yarımstansiyanın təməlini qoydu. Vətən müharibəsindən sonra bu rayonun da enerji təchizatının yenidən qurulması üçün genişmiqyaslı işlər həyata keçirilib. Belə ki, elektroenergetika infrastrukturu tamamilə dağıdılmış rayona Füzulidəki "Şükürbəyli" yarımstansiyasından ümumi uzunluğu 110 kilometr olan ikidövrəli 110 kV-luq elektrik verilişi xətti çəkilib.

Qeyd edək ki, işğala qədər 40 min nəfərdən çox əhalisi olan Zəngilan rayonunun ümumi enerji tələbatı orta hesabla 7 MVt olub. Hazırda ərazisində hava limanı, qızıl, mis yataqları, dağ-eko, aqro və mədəni turizm, "ağıllı şəhər", "ağıllı kənd" də daxil olmaqla, qeyri-əhali abonentlərin və 50 mindən çox əhalinin məskunlaşması proqnozlaşdırılan Zəngilanda 2040-cı il üçün elektrik enerjisi tələbatının 40 MVt-dan çox təşkil edəcəyi gözlənilir.

Dövlət başçısının xeyir-duası ilə Zəngilan rayonunda Rəqəmsal Yarımstansiyanın qurulmasına da start verilib. Xatırladaq ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamında qarşıya qoyulan vəzifələrin icrası məqsədilə "Azərişıq" tərəfindən Paylayıcı Şəbəkələrin Yaşıl Enerji Zonası tələbləri üzərində qurulmasına başlanıb və "ağıllı şəbəkələr" konsepsiyasının təməl elementlərindən biri olan Rəqəmsal Yarımstansiya layihəsi işlənib hazırlanıb. Bu cür yarımstansiyalar elektrik şəbəkəsinin vəziyyəti haqqında bütün məlumatları toplayır, emal edir, avadanlığın rəqəmsal formatda idarə olunmasını təşkil edir. Ən əsası, "yaşıl enerji" mənbələri şəbəkəyə inteqrasiya olunur. Bərpa olunan enerji mənbələrinin şəbəkələrə inteqrasiyası rəqəmsal yarımstansiyada avtomatik idarə edildiyindən elektrik enerjisi təchizatında fasilələrin yaranması tam aradan qaldırılır. İstehlakçılar yarana biləcək texniki fasilə barədə məlumatı onlayn qaydada əvvəlcədən alır. İndi Füzulidə də Rəqəmsal Stansiya İdarəetmə Mərkəzi tikilir.

Prezident İlham Əliyev ölkəmizdə bərpa olunan enerjinin inkişafına böyük diqqət göstərildiyini qeyd edərək demişdir: "Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. Bu 240 meqavat gücündə günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində "yaşıl enerji" layihələrinə sərmayə qoymağa dəvət edirəm".

Dövlət başçısı Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan etdiyini xatırladaraq bildirmişdir ki, Azərbaycanın azad olunmuş ərazilərinin 7200 meqavat günəş enerjisi və 2000 meqavat külək enerjisi potensialı var.

Bu bölgələrin bərpa olunan enerji istehsalı üçün imkanları çox genişdir. Belə ki, Yer səthinə düşən günəş radiasiyasının miqdarına görə Qarabağın cənub düzənlik hissəsi - Füzuli, Cəbrayıl, Zəngilan rayonları Naxçıvan Muxtar Respublikası ərazisindən sonra ikinci yerdə dayanır. Burada bir kvadratmetr üfüqi səthə düşən günəş radiasiyası ildə 1600-1700 kilovat/saat təşkil edir. Həmin ərazilərin ümumi günəş enerjisi potensialı 3000-4000 meqavatdır. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə potensialın daha dəqiq hesablanması həyata keçiriləcək.

Bu yerlərdə eləcə də külək enerjisi istehsal etmək mümkün olacaq. Çünki regionun dağlıq hissəsində 100 metr hündürlükdə küləyin orta illik sürətinin saniyədə 7-8 metr olduğu geniş ərazilər mövcuddur. Kəlbəcər və Laçın rayonlarının Ermənistanla sərhəd ərazilərində küləyin orta illik sürəti saniyədə 10 metrə çatır. Ümumilikdə, Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir. Ölçü müşahidə stansiyalarının quraşdırılması yolu ilə bu sahənin də dəqiq potensialı hesablanacaq.

Bunlardan əlavə, Kəlbəcərdə və Şuşada termal su ehtiyatları var. Qarşıda dayanan vəzifələrdən biri də termal mənbələrdən enerji məqsədli istifadənin mümkünlüyünü tədqiq etməkdir.

Beləliklə, işğaldan azad olunmuş ərazilərimiz "yaşıl enerji" zonasına çevrilir. Əslində, bu regionda bərpa olunan enerji mənbələrindən istifadə, enerji səmərəliliyi, ekoloji təmiz texnologiyalar, o cümlədən nəqliyyat vasitələrinin tətbiqi və digər məsələləri əhatə edəcək "yaşıl zona", yaxud "yaşıl məkan" konsepsiyasının hazırlanmasına hələ Vətən müharibəsindəki şanlı qələbəmizdən az sonra başlanmışdır. Bu il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalamışdır. Dövlət başçısı bu ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə əlaqədar müvafiq konsepsiyanın və baş planın hazırlanması üçün ixtisaslaşmış beynəlxalq məsləhətçi şirkətin cəlb edilməsi məqsədilə 2021-ci ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Energetika Nazirliyinə 1 milyon 391 min 40 ABŞ dollarının manat ekvivalenti məbləğində vəsait ayrılmasını qərara almışdır.

Bu gün dünyanın ən böyük enerji şirkətləri də Azərbaycanda bərpa olunan enerji növlərinin istehsalına maraq göstərir və artıq bu maraq reallaşır. İşğaldan azad edilmiş ərazilərimizdə "yaşıl enerji" zonasının yaradılması məqsədilə bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı özəl investisiyaların cəlb olunması üçün investorlarla müzakirələr aparılır. Bir sözlə, bu rayonları "yaşıl enerji" məkanına çevirmək üçün imkanlardan səmərəli istifadə olunur. Bu da deməyə əsas verir ki, düşmən tapdağından azad edilmiş ərazilərimizdə işıqlar gur yanacaq. Həmin istiqamətdə görülən işlər ölkəmizin daha böyük sosial-iqtisadi inkişafına xidmət edəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Çörəyin çəkisinə və satış qiymətlərinə dair tənzimlənmə ilə bağlı müzakirələr aparılıb

Dövlət Vergi Xidməti (DVX) ölkə iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarların vergi qanunvericiliyinin tətbiqi ilə bağlı qarşılaşdıqları çətinliklər və təkliflərinin öyrənilməsi istiqamətində qarşılıqlı əməkdaşlığı və görüşləri davam etdirir.

DVX-dən AZƏRTAC-a bildirilib ki, növbəti görüş Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsi, Tədris Mərkəzi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və çörək istehsalı ilə məşğul olan aparıcı vergiödəyicilərinin nümayəndələrinin iştirakı ilə onlayn formatda keçirilib.

Görüşdə un məmulatlarının satışının, çörək istehsalı ilə əlaqədar lazım olan qatqıların, qablaşdırma məhsulları və avadanlıqların idxalının ƏDV-yə cəlb olunması, ƏDV-yə cəlb edilən və azad olunan əməliyyatların uçotunun aparılması, çörəyin çəkisinə və satış qiymətlərinə dair tənzimlənmənin müəyyən edilməsi, həmçinin un məhsullarının istehsalçılarına un alışı üçün verilən subsidiya ilə bağlı müzakirələr aparılıb.

Görüşdə səsləndirilən məsələlərlə bağlı müvafiq izahatlar verilib və dövlət-biznes əməkdaşlığının bundan sonra da davam etdiriləcəyi bildirilib.

## Tel-Əvivdə İsrail-Azərbaycan kənd təsərrüfatı biznes-forumu keçirilib

Tel-Əvivdə İsrail-Azərbaycan Kənd Təsərrüfatı Biznes Forumu keçirilib. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi, İsrail Kənd Təsərrüfatı və Kənd Yerlərinin İnkişafı Nazirliyi, İsrail İxrac İnstitutunun təşkilatçılığı ilə keçirilən tədbirdə hər iki ölkədən aidiyyəti qurumların nümayəndələri, kənd təsərrüfatı üzrə ixtisaslaşmış şirkətlərin rəhbərləri iştirak ediblər.

Biznes-forumun açılış mərasimində çıxış edən kənd təsərrüfatı naziri İnam Kərimov bildirib ki, keçirilən yüksək səviyyəli tədbir Azərbaycanla İsrail arasında ümumi işgüzar maraqların və yüksək səviyyəli əlaqələrin inkişafından xəbər verir. Forum biznes sektoruna kənd təsərrüfatı sahəsində ən yaxşı təcrübələrini bölüşmək və mövcud tərəfdaşlığı daha da inkişaf etdirmək üçün mühüm imkanlar yaradır: "Hər iki ölkənin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri əməkdaşlığı daha da inkişaf etdirmək üçün ikitərəfli görüşlər keçirmək şansından maksimum yararlanacaqlar. Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir, aqrar sahədə əsas hədəflər ətraf mühitin mühafizəsi, ərzaq təhlükəsizliyi, aqrar məhsul ixracının artımı və sosial məsuliyyəti balanslaşdıran davamlı kənd təsərrüfatı yaratmaqdır".

Biznes-forumda çıxış edən İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Oded Forer Azərbycanla əlaqələrin yüksək səviyyədə olduğunu, qarşılıqlı əməkdaşlığı inkişaf etdirmək üçün böyük potensialın olduğunu deyib. Ölkəsinin Azərbaycanla bir çox sahələrdə əməkdaşlıq etdiyini deyən nazir xüsusilə kənd təsərrüfatı sahəsində əməkdaşlığın daha da genişləndirilməsi imkanlarının mövcud olduğunu bildirib. Onun sözlərinə görə, İsrail Azərbaycanla aqrar sahədə mütəxəssis hazırlığı, təcrübə mübadiləsi, müasir texnologiyaların transferi, aqrar tədqiqatlar sahəsində əməkdaşlıqda xüsusilə maraqlıdır: "Əməkdaşlığın inkişaf etdirilməsində ən böyük rollardan biri biznes qurumlarının üzərinə düşür və kənd təsərrüfatı üzrə ixtisaslaşmış şirkətlərin əməkdaşlığı yekun nəticədə ölkələrin aqrar sahədə əməkdaşlıq imkanlarını genişləndirir. Azərbaycanla İsrail qarşılıqlı ticarət dövriyyəsini artırmağa çalışmalıdır. Bu sahədə əsas məsuliyyət həm də böyük şirkətlərin üzərinə düşür. Ümidvaram ki, biznes-forum çərçivəsində İsrail və Azərbaycandan olan iş adamlarının keçirəcəyi təkbətək görüşlər, aparacaqları fikir mübadiləsi yekunda iki ölkə arasında əməkdaşlığın daha da inkişafına müsbət təsir göstərəcək".

Daha sonra biznes-forumda Azərbaycan və İsrailin kənd təsərrüfatı potensialına həsr olunmuş təqdimatlar keçirilib. Forum Azərbaycan və İsrail iş adamlarının ikitərəfli görüşləri ilə davam edib. Azərbaycan şirkətlərinin nümayəndələri israilli həmkarları ilə aqrar sahənin müxtəlif istiqamətlərinə dair fikir mübadiləsi aparıb, əməkdaşlığın inkişaf perspektivlərini dəyərləndiriblər.

## İlin əvvəlindən 46 minə yaxın şəxsə əlillik təyin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-oktyabr ayları ərzində 45 677 şəxsə əlillik təyin olunub.

Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. Onlardan 14 245-i ilkin, 31 432-si təkrar əlillik təyinatıdır.

Əlillik təyinatından sonra proaktiv qaydada elektron sistem üzərindən onlara əlilliyə görə sosial ödənişlər təyin edilib.

Bu ilin 10 ayında həmçinin əlilliyi olan 7 615 şəxsə 38 670 reabilitasiya vasitəsi verilib, 6 429 şəxsə isə reabilitasiya xidmətləri göstərilib.

## İKZF-nin xətti ilə 36 mindən çox ipoteka krediti verilib

**İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə verilən ipoteka kreditlərinin sayı və məbləği açıqlanıb.**

İKZF-dən AZƏRTAC-a bildirilib ki, İpoteka və Kredit Zəmanət Fondunun xətti ilə indiyədək 36 min 186 ipoteka krediti verilib. Fondun vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə məbləğ 1 milyard 953 milyon 289 min 686 manatdır.

## İcmaların dayanıqlı gələcəyinə töhfə

bp öz "Azəri-Çıraq-Günəşli", Bakı-Tbilisi-Ceyhan, "Şahdəniz" və Cənubi Qafqaz Boru Kəməri layihələrindəki tərəfdaşları - SOCAR, TPAO, PETRONAS, MOL, LUKOİL, NİCO, "Equinor", İNPEX, "ExxonMobil", SGC, İTOCHU, ONGC, TOTAL, "Eni" - adından ali təhsil müəssisələrinə yeni daxil olmuş 63 gəncin uğurunu qeyd etmək üçün tədbir keçirib.

Onlar bp və tərəfdaşlarının beş ildir dəstəklədiyi "Gələcəyini qur" layihəsi üçün aztəminatlı ailələrdən seçilmiş və bir il həmin proqramda hazırlıq keçmiş gənclərdir.

Bu layihə bp və tərəfdaşlarının qonşu icmaların bacarıq və səriştələrinin artırılmasına və sosial inkişafına dəstək olmaq öhdəliyinin bir hissəsidir. Layihə çərçivəsində aztəminatlı ailələrdən seçilmiş 11-ci sinif şagirdlərindən ibarət böyük bir qrupa universitetə daxil olmaq üçün birillik geniş hazırlıq təlimləri keçilir. Bu günədək Qaradağ, Kürdəmir, Ucar, Ağdaş, Yevlax və Hacıqabul rayonlarındakı müxtəlif icmaları təmsil edən təxminən 400 aztəminatlı ailə bu layihədən faydalanıb.

Beş il ərzində layihədə ümumilikdə iştirak etmiş 389 nəfərdən təxminən 334-ü, iştirakçıların təxminən 90 faizi ali məktəblərə qəbul imtahanlarının tələblərinə cavab verərək müxtəlif universitet və kolleclərdə tələbə adını qazanıb. Builki mərhələnin 74 iştirakçısından 52-si universitetlərə və 11-i kolleclərə qəbul olunub, onlardan yeddisi (iki nəfər 600-dən çox bal toplamış iştirakçı da daxil olmaqla) 500-dən yuxarı bal toplayıb.

bp-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli öz çıxışında demişdir: "Çox məmnunuq ki, beş ildir bu layihəyə dəstək veririk və layihənin ümumi uğurundan ruhlanaraq, bu təşəbbüsü 2022-ci ildə də davam etdirmək qərarına gəlmişik. İnanırıq ki, bu layihə obyektlərimizin qonşuluğunda yaşayan icmaların gələcəyinə yaxşı sərmayədir. Bu həm də öz icmalarının dayanıqlı gələcəyini təmin edəcək bilikli, yüksək təhsilli və bacarıqlı gənc nəslin yetişdirilməsi üçün gözəl bir imkandır".

Layihənin beş mərhələsinin ümumi dəyəri təxminən 1,3 milyon AZN-dir və hər bir mərhələnin müddəti bir ildir.

Layihə "Build Your Future" MMC tərəfindən yerinə yetirilir.

## Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının dəmir yolu ilə daşınmasına tətbiq edilən tariflər endirilib

Azərbaycanda istehsal olunan kənd təsərrüfatı məhsullarının ölkə xaricinə çıxarılmasının asanlaşdırılması istiqamətində növbəti addım atılıb.

"ADY Express" MMC-dən AZƏRTAC-a bildirilib ki, Azərbaycan və Rusiya dəmir yollarının birgə işləyib hazırladığı yeni layihə ölkəmizdə istehsal olunan, tez xarab olan kənd təsərrüfatı məhsullarının əsas bazarı olan Rusiya istehlakçılarına keyfiyyətli və vaxtında çatdırılmasını nəzərdə tutur. Layihənin əsası cari ilin sentyabr ayında Moskvada, Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında kənd təsərrüfatı məhsullarının nəqlinin inkişaf etdirilməsi məqsədilə iki ölkə dəmiryolçuları arasında xüsusi görüşdə qoyulub. "Rusiya Dəmir Yolları" ASC və onun törəmə şirkəti olan "RJD Logistika" SC, "Azərbaycan Dəmir Yolları" QSC və törəmə şirkəti "ADY Express" MMC-nin nümayəndələri arasında danışıqlar aparılıb və daha sonra görülən tədbirlər nəticəsində bir sıra kompleks qərarlar qəbul edilib. Qərarlar daşıma tariflərini, yükdaşımaların texnologiyasını, terminallarda yükaşırma prosesi və vaqon təminatını əhatə edir. Belə ki, daşıma iştirakçıları öz ərazilərində bu cür yüklərin daşınması tarifində güzəştlər tətbiq etməyə başlayıblar. Rusiya ilə sərhədə yaxın yerləşən Xaçmaz rayonu ərazisində əsasən kənd təsərrüfatı məhsullarının aşırıldığı yeni terminaldan istifadə ediləcək. Yüklər bu terminalda vaqonlara yüklənərək birbaşa Moskva yaxınlığında yerləşən Selyatino stansiyasına və oradan birbaşa olaraq son müştəri-alıcıya çatdırılacaq. Layihənin həyata keçirilməsi üçün soyuducu vaqonlardan (refseksiya və refkonteyner) istifadə ediləcək. Yük həcmi artdıqca sahibkarların məhsullarının istehlakçıya vaxtında çatdırılmasını təmin etmək üçün tərəflər özəl refvaqon və refkonteynerlərin cəlb edilməsini təmin edəcəklər. Məqsəd tarlalardan son alıcıya vaxtında və keyfiyyəti qorumaq şərti ilə məhsulu çatdırmaqdır. Rusiya və Azərbaycan dəmir yolu idarələrinin qərarına əsasən, bütün bu işlər törəmə şirkətləri olan "RJD Logistika" SC və "ADY Express" MMC-ə tapşırılıb.

Daşımaların operatorundan biri olan "ADY Express"in nümayəndələri Xaçmazda yerli sahibkarlarla görüş keçirib, onların istehsal etdiyi məhsulların istehlakçıya çatdırılması istiqamətində indiyədək qarşılaşdığı problemlərin həlli ilə bağlı müzakirələr aparıblar. Tərəflər xüsusən mövsümün pik vaxtında, tez xarab olan məhsulların vaxtında daşınması istiqamətində meydana gələn problemlərin tezliklə həll olunacağına inandıqlarını bildiriblər.

Ümumilikdə bütün bu tədbirlər ölkədə qeyri-neft sektorunun həcminin artmasına öz töhfəsini verəcək, həmçinin kiçik və orta sahibkarlığın inkişafına şərait yaradacaq. İxrac potensiallı yüklər sürətli, təhlükəsiz, səmərəli və keyfiyyəti qorumaq üçün tələb olunan temperatur rejimini təmin edən vaqonlarda təyinat məntəqəsinə çatdırılacaq.

## "Keşikçidağ" qoruğuna gedən yeni avtomobil yolunun inşası davam edir



Dövlət başçısının tapşırığına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən turizmin inkişafı və yeni turizm marşrutlarının yaranmasına gətirib çıxaracaq yol infrastrukturu layihələrinin icrası həyata keçirilir.

Məhz bu çərçivədə Ağstafa rayonunda "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğuna gedən yeni avtomobil yolunun inşası davam etdirilir.

Qoruğa gedən yeni avtomobil yolu başlanğıcını yerli əhəmiyyətli Ağstafa-Poylu-Gürcüstan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 38-ci km-dən götürür. IV texniki dərəcəyə uyğun olaraq inşa edilən avtomobil yolunun uzunluğu 29 km-dir.

Hazırda zəruri materialdan istifadə olunmaqla yeni yol əsasının inşası, yol əsası hazır olan hissələrə isə yeni asfalt-beton örtüyünün döşənməsi işləri icra olunur.

Bütün işlər texnoloji ardıcıllığa uyğun olaraq və yüksək keyfiyyətlə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında aparılır. İşlərin nəzərdə tutulmuş müddət ərzində icra olunaraq yekunlaşdırılması üçün tikinti sahəsinə kifayət qədər qüvvə cəlb olunub.

Təxminən VI əsrə aid edilən "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğunun turizm əhəmiyyəti nəzərə alınaraq və turistlərin bu abidəni ziyarət etməsini asanlaşdırmaq üçün inşa edilən yeni avtomobil yolu regionun potensial imkanlarının genişləndirilməsi və turizmin inkişafı baxımından önəmli rola malikdir. Layihənin reallaşması yeni turizm marşrutlarının yaranmasına da şərait yaradacaq.

# "Buta Airways" Səudiyyə Ərəbistanına uçuşlar yerinə yetirməyə başlayır

**Azərbaycanın aşağı büdcəli aviadaşıyıcısı "Buta Airways" Səudiyyə Ərəbistanının iki şəhərinə - Ər-Riyad və Dammam şəhərlərinə xüsusi reyslər yerinə yetirməyə başlayır.**



"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətindən verilən məlumata görə, paytaxt Ər-Riyad şəhərinə reyslər 27 noyabr tarixindən etibarən həftənin şənbə günləri, Dammam şəhərinə isə 26 noyabrdan etibarən həftənin bazar ertəsi və cümə günləri həyata keçiriləcəkdir.

Ölkədəki epidemioloji vəziyyətlə əlaqədar tətbiq olunan məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Hər iki tarifə ödənişsiz olaraq yer seçimi və hava limanında qeydiyyat daxildir.

Həmin reyslərə biletləri daşıyıcının rəsmi saytından ("Super" və "Standart" tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız "Super" tarifi üzrə) əldə etmək mümkündür.

Aviabiletlərin dəyəri 55 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun 1-ci Terminalında xidmət göstəriləcəkdir.

Reyslərə yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunacaq.

Səudiyyə Ərəbistanına səyahət etməyi planlaşdıran Azərbaycan vətəndaşları bu ölkə ərazisinə giriş hüququna malik olmalıdırlar. Pandemiya dövründə Səudiyyə Ərəbistanına giriş qaydaları ilə aviaşirkətin saytında tanış ola bilərsiniz: https://www.butaairways.az/az/covid/saudi-arabia

Azərbaycanda COVID-19-a dair testdən keçmək üçün klinikaların siyahısı aviaşirkətin rəsmi saytında təqdim edilmişdir: https://www.butaairways.az/az/covid/clinics

Sərnişin Səudiyyə Ərəbistanının şəhərlərindən Azərbaycana uçuş zamanı COVID-19-a dair testi dövlət tərəfindən akkreditə olunmuş və PCR-testi üsulu ilə analiz götürən istənilən klinika və ya laboratoriyada verə bilər. Arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

# Əməkdar artist Məcnun Hacıbəyov Qubada dəfn olunub



**Əməkdar artist Məcnun Hacıbəyov Quba rayonunun İkinci Nügədi kənd qəbiristanlığında dəfn olunub.**

AZƏRTAC xəbər verir ki, M.Hacıbəyov uzun müddət Quba Rayon Mərkəzi Xəstəxanasında koronavirusdan müalicə olunsa da, həyatını xilas etmək mümkün olmayıb. Sevilən aktyor noyabrın 16-sı səhər saatlarında 86 yaşında dünyasını dəyişib. Dəfn mərasimində Quba Rayon İcra Hakimiyyətinin əməkdaşları, mədəniyyət və incəsənət nümayəndələri və kənd sakinləri iştirak ediblər.

Məcnun Hacıbəyov 1935-ci ildə Quba rayonunun İkinci Nügədi kəndində doğulub. 1965-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin aktyorluq fakültəsini bitirib. Aktyor "Canavar balası", "Evlənmək istəyirəm", "Gənclik macərası", "Göz həkimi", "Gülüş sanatoriyası", "Kişilər", "Qatarda", "Qəzəlxan", "Yarımştat" kimi film və televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

# Ölkə ərazisində hava əsasən yağmursuz olacaq

**Azərbaycanda noyabrın 17-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 3-5°, gündüz 8-11° isti, Bakıda gecə 3-5°, gündüz 9-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 775 millimetr civə sütunundan 771 millimetr civə sütununa enəcək. Nisbi rütubət 60-70 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, noyabrın 17-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Səhər bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 7-11° isti, dağlarda gecə 3-8°, yüksək dağlıq ərazilərdə 10-15° şaxta, gündüz 0-5° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 7-12° isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 1-6° isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5° şaxta, gündüz 1-6° isti, dağlarda gecə 5-10°, gündüz 0-5° şaxta olacağı ehtimal edilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə havanın yağıntılı olacağı ehtimalı var. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 1° şaxtadan 4°-dək isti, gündüz 6-10° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 4-9° isti, dağlarda gecə 3-8° şaxta olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Gecə və səhər saatlarında duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 0-5°, gündüz 7-11° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gecə bəzi yerlərdə yağış yağacağı gözlənilir. Dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Dağlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 2-5°, gündüz 7-10° isti, dağlarda gecə 2-6° şaxta, gündüz 0-3° isti olacağı bildirilir.


## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 10 avqust 2021-ci il tarixli sayında Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi tərəfindən Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyli küçəsi, 134 saylı ünvanda yerləşən inzibati binada mebel təchizatı işlərinin satın alınması ilə əlaqədar dərc edilmiş elektron açıq tenderdə "Dekoriko" Qapalı Səhmdar Cəmiyyəti qalib elan olunmuşdur.

Qalib şirkətlə 16 noyabr 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmi və ümumi təyinatlı lampaların satın alınması *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 noyabr 2021-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1263.**

*Tender komissiyası*

## OXUCULARIN NƏZƏRİNƏ! "AZƏRBAYCAN"

*qəzeti 2022-ci il üçün*
*abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC gəmilərində quraşdırılan radionaviqasiya avadanlıqları üçün ehtiyat hissələrinin satın alınması məqsədilə *açıq müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 noyabr 2021-ci il saat 17.00-dəkdir.

**Ünvan: AZ1003, Bakı şəhəri, Neftçilər prospekti, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1016.**

*Tender komissiyası*


# Baş Prokurorluq: General-mayor Hikmət Həsənovun minaya düşməsi ilə bağlı başlanmış cinayət işinin istintaqı davam edir

Baş Prokurorluq general-mayor Hikmət Həsənovun Ağdamın işğaldan azad olunmuş ərazisində zirehli maşında hərəkətdə olarkən minaya düşərək xəsarət alması ilə bağlı cinayət işinin başlanması barədə məlumat yayıb.

AZƏRTAC xəbər verir ki, bu barədə mətbuatın sorğusunu cavablandıran Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumatda bildirilir: "General-mayor Hikmət Həsənovun 2020-ci il noyabrın 20-də işğaldan azad olunmuş Ağdam rayonuna daxil olarkən zirehli maşında minaya düşərək xəsarət alması faktı ilə bağlı Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin 29, 120.2.7-ci (iki və ya daha çox şəxsi qəsdən öldürməyə cəhd) və 29, 120.2.12-ci ( milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürməyə cəhd) maddələri ilə cinayət işi başlanılaraq istintaq aparılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikasının Əməkdar memarı, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli, Memarlar İttifaqının İdarə Heyətinin üzvü

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi respublikanın Əməkdar memarı, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli, Memarlar İttifaqının İdarə Heyətinin üzvü

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-dən Zakir Quliyev YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin müdiri Əhliman Tağıyevə həyat yoldaşı

**SUMARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı, Əməkdar memar

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə Milli Məclisin deputatı, akademik Nizami Cəfərova anası

**SAVAD XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət mükafatı laureatı, respublikanın Əməkdar memarı

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Dövlət mükafatı laureatı, Əməkdar memar

**RASİM HƏSƏN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi AHİK-in katibi - aparat rəhbəri Həsən Cəfərova əzizi

**RAYGÜL XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Sevinc Hüseynovaya anası

**MAYA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova və universitetin kollektivi respublikanın Əməkdar memarı, Dövlət mükafatı laureatı, "Şöhrət", "Şərəf" və "İstiqlal" ordenli

**RASİM ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5590
Sifariş 2304
Qiyməti 40 qəpik